# GÜLƏLİYEV ƏLÖVSƏT






Bir şəxsin kimliyi təkcə onun təhsili yaxud tərbiyəsi ilə müəyyən edilmir. Çünki təktərəfli inkişaf insanı fərd olaraq yetişdirir. Şəxsiyyət olaraq bütövlük hər iki vacib tərəfin, yəni təhsil və tərbiyənin birgə vəhdətindən yaranır. Kimliyindən asılı olmayaraq bu iki vacib xüsusiyyət hər bir ailədə birgə formalaşdırılmalı, təməl daşı uğurlu qoyulmalıdır. Sağlam ailələr, sağlam cəmiyyətin kiçik ancaq uğurlu modeli olduğu kimi, sağlam düşüncə və yetkin təfəkkür daşıyıcıları da vətəndaşı olduğu ölkənin ən zəngin sərvətidir. Nə xoşbəxtdir o ölkə ki, əsas kapitalı insandır. Savadlı kadrlar tərəfindən idarə olunan ölkənin hərtərəfli inkişafı qaçılmazdır. Ancaq o kadrları gərək zamanında tapıb üzə çıxardıb cəmiyyətə layiqli təqdim edəsən. Elə təhsil sahəsi üzrə ixtisaslaşan jurnalımızın əsas qayəsi də buna xidmət etməkdədir. Bu qayə ilə növbəti yazımızın qəhrəmanı Güləliyev Əlövsət Əsgər oğludur.

2 yanvar 2012-ci ildə Sabirabad rayonunda dünyaya göz açan Əlövsət ötən ildən Əli Qurbanov adına Qalaqayın kənd tam orta məktəbinin 1-ci sinifinə gedib. Baxmayaraq ki, 7 yaşı var, amma Əlövsət bala dərslərinə indidən cox ciddi yanaşır. Ailənin ilki olduğu üçün valideynləri onun məktəbə getməsini səbrsizliklə gözləyiblər. O günü görən ailə onunla qürur duyur. Əlində məktəbli çantası ilə həm özünü, həm doğmalarını sevindirən Əlövsət orta təhsilini yüksək səviyyədə mənimsəməyi qarşısına məqsəd qoyub. İlk dərs günlərindən etibarən müəllimi də bu balaca, ancaq ağıllı oğlanı çox sevib. Çünki Əlövsət hər gün dərsə hazır gəlir, ev və dərs tapşırıqlarını səliqəli, məsuliyyətlə yerinə yetirir. Elə səbəbsiz deyil ki, fəxri fərmana layiq görülən Əlövsət mükafatı dərslərində göstərdiyi uğura görə qazanıb.

Gələcəkdə hüquq işçisi olmağı indidən planlayan Əlövsət idmanı sevərək onunla aktiv məşğul olur. Hərdən öz sözləri ilə desək "qəliz" qələmini götürüb özəməxsus şer yazmaq fərasəti də var. Elə ailəsinin istəyi ilə ürəyindən keçən ən səmimi uşaq duyğularının həkk olunduğu misraları sizinlə paylaşırıq.

Sabirabadın Qalaqayın kəndində yaşayıram mən,
Soyadım Güləliyevdi, Əli adını daşıyıram mən.
Əli Qurbanov adına orta məktəbdə oxuyuram mən,
Müəlliməm də mənə əzizdir.
Qələmlərim bir az qəlizdir.
On biri beşlə qurtaracam, onu bilirəm.
Ürəyim tər-təmizdir.
Çünki Azərbaycan bizim ölkəmizdir.

Beş nəfərlik ailədə Əlövsətlə yanaşı, 4 yaşlı Fatimə Güləliyeva da böyüyür. Atası Güləliyev Əsgərin peşəsi usta, anası Güləliyeva Gülanə isə evdar xanımdır. Kiçik, ancaq zəhmətkeş ailəyə uğurlar arzulayaraq jurnalımızın kollektivi adından elm, təhsil yolunda kiçik addımlarını atan Əlövsət balaya isə can sağlığı, dərslərində böyük nəaliyyətlər əldə etməyi diləyirik.



# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT RƏMZLƏRİ

## DÖVLƏT BAYRAĞI



Azərbaycanda üçrəngli dövlət bayrağı ilk dəfə 1918-ci il noyabr ayının 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə qəbul edilmişdir. 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyəti süqut etdikdən və Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycanda bu bayraq qadağan edilmiş və sovet bayrağı ilə əvəz olunmuşdur.

Sonralar Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırılmışdır. 1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Azərbaycan Respublikasının dövlət suverenliyinin rəmzlərindən biri olan üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar vermişdir. Azərbaycan Respublikasının dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir. Mavi rəng - Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəng - islam sivilizasiyasına mənsubluğunu ifadə edir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.



## DÖVLƏT GERBİ

Azərbaycanın dövlət gerbi haqqında Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1920-ci il yanvarın 30-da müsabiqə elan etmiş və müsabiqədən keçəcək gerb nümunəsinin həmin ilin mayın 28-də qəbul ediləcəyi haqqında qərar çıxarmışdır. Lakin 1920-ci il aprel ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi nəticəsində həmin gerb qəbul edilməmişdir. Sonralar - 1990-cı ildə Azərbaycan SSR Ali Soveti qarşısında Azərbaycanın Dövlət gerbinin hazırlanması üçün yeni müsabiqənin elan olunması haqqında vəsatət qaldırılmışdır. Müsabiqə 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə elan olunmuşdur. 1991-1992-ci illərdə müsabiqəyə Dövlət gerbinin onlarla layihəsi təqdim olunmuşdur. Müzakirələr zamanı 1919-1920-ci illərdə hazırlanmış layihələrdən birinin qəbul edilməsi ilə bağlı təkliflər də səslənmişdir.

Azərbaycan Respublikasının Ali Soveti 1993-cü il yanvarın 19-da qəbul etdiyi Konstitusiya Qanunu ilə 1919-1920-ci illərdə hazırlanmış Dövlət gerbi layihələrindən birini müəyyən dəyişikliklərlə Azərbaycan Respublikasının Dövlət gerbi kimi təsdiq etmişdir. Dövlət gerbi haqqında Əsasnamə və ona əlavə edilmiş təsvir 1993-cü il aprelin 5-də təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Dövlət Gerbi Azərbaycan dövlətinin müstəqilliyinin rəmzidir. Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən Şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikasının Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində isə alov təsviri vardır.

Gerbin rəngli təsvirindən ulduz ağ, alov qırmızı, palıd budaqları yaşıl, sünbüllər sarı, qalxanın və ulduzun sağanaqları habelə qalxanın düymələri və palıd qozaları qızılı rəngdədir.

## DÖVLƏT HİMNİ

1920-ci il yanvarın 30-da Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Cümhuriyyətin Milli Himninin hazırlanması haqqında qərar qəbul etdi və bu məqsədlə Xalq Maarif Nazirliyi tərəfindən müsabiqə elan edildi. Lakin 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyətinin süqutu Azərbaycanın Milli Himnini qəbul etməyə imkan vermədi. Azərbaycan Respublikasının ilk Dövlət Himni 1945-ci ildə Azərbaycan SSR Sovet İttifaqının tərkibində olarkən qəbul edilmişdir (sözləri S.Vurğun və S.Rüstəmin, musiqisi Ü.Hacıbəyovun) 1992-ci il mayın 27-də parlament "Azərbaycan Respublikasının Dövlət Himni haqqında" Qanun qəbul etdi. Qanuna əsasən, 1919-cu ildə böyük bəstəkar Üzeyir Hacıbəyov və şair Əhməd Cavad tərəfindən tərtib edilmiş təntənəli "Azərbaycan marşı" Azərbaycanın Dövlət Himni kimi təsdiq edildi.

Musiqisi: **Üzeyir Hacıbəyovun,**
Sözləri: **Əhməd Cavadındır.**

**Azərbaycan! Azərbaycan!**
**Ey qəhrəman övladın şanlı Vətəni!**
**Səndən ötrü can verməyə cümlə hazırız!**
**Səndən ötrü qan tökməyə cümlə qadiriz!**
**Üçrəngli bayrağınla məsud yaşa!**
**Minlərlə can qurban oldu,**
**Sinən hərbə meydan oldu!**
**Hüququndan keçən əsgər!**
**Hərə bir qəhrəman oldu!**
**Sən olasan gülüstan,**
**Sənə hər an can qurban!**
**Sənə min bir məhəbbət**
**Sinəmdə tutmuş məkan!**
**Namusunu hifz etməyə,**
**Bayrağını yüksəltməyə,**
**Cümlə - gənclər müştaqdır!**
**Şanlı Vətən! Şanlı Vətən!**
**Azərbaycan! Azərbaycan!**

**Ziyalılıq kütləvi ola bilməz. Alim, şair, bəstəkar, rəssam, yazıçı artıq bunlar fikri istedada malik olan nadir adamlardır**

*Heydər Əlirza oğlu Əliyev*



**Zərifə Əziz qızı Əliyeva**

Azərbaycan SSR-nın əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki



**Heydər Əlirza oğlu Əliyev**

Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Respublikasının üçüncü Prezidenti "Ulu öndər" və "Azərbaycan xalqının ümummilli lideri" titullarının rəsmi daşıyıcısı.

***Mənalı ömür yaşamaq hər insanın taleyinə yazılmır. Elə insanlar var ki, onların ömür yolu gələcək nəsillərin həyatına işıq saçır, xalqa tükənməz bir xəzinə bəxş edir.***

Bu dünyaya insanlara nur paylamaq, xeyirxahlıq etmək üçün gəlmiş Zərifə xanım Əliyeva da belə seçilmiş insanlardan olmuşdur. O, günəş qədər parlaq ürək sahibi, yüksək mənəviyyat, daxili zənginlik simvolu idi. Qəlbini şam kimi əridib ondan xeyirxahlıq, işıq umanların yoluna nur çiləmək üçün yaradılmışdı Zərifə xanım Əliyeva.

Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi Ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi idi. O, nə edirdisə böyük sevgi ilə edirdi. Onun sevgisinin gücü öz ailəsinin hüdudlarında daha çox duyulurdu.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri xiyabanda - atasının məzarə yanında dəfn olunmuşdur. Bütün ömrünü insanlara xidmət işinə sərf etmiş bir insanın bu gün aramızda olmamasına inanmaq çox çətindir. Fəqət, görkəmli alimin, xeyirxah insanın, qayğıkeş ananın adının qədirbilən xalqımızın yaddaşında əbədi həkk olunması bu gün hər bir azərbaycanlı üçün təsəlliverici məqamdır.

***Azərbaycan xalqının şanlı oğlu, qüdrətli dövlət xadimi, dahi siyasətçi Heydər Əliyevin 2016-cı il mayın 10-da anadan olmasının 94-cü ildönümü tamam olur.***

Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991 - 1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir. 1993-cü ilin may-iyununda ölkədə siyası böhranının son dərəcə kəskinləşməsi ilə əlaqədar o zamankı rəhbərlik Heydər Əliyevi Bakıya dəvət etmişdir. Heydər Əliyev 1993-cü il 15 iyunda Azərbaycan Ali Sovetinin sədri seçilmiş, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra etməyə başlamışdır.

Heydər Əliyev bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş, öz fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmişdir. Azərbaycan xalqı heç vaxt ondan dəstəyini əsirgəməmişdir. Azərbaycan xalqının ümummilli lideri, müdrik rəhbər və dahi şəxsiyyət Heydər Əlirza oğlu Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.



# QULİYEV NƏBİ



Dinimizin əsl mahiyyəti elm və əqilə verilən yüksək dəyərdədir. Elə bir insan tapılmaz ki, elm və əqlə dəyər verməsin. Ümumiyyətlə, elm və ağıl mövzusu bütün insanlığın mahiyyətində əsas qərar tutmuşdur. Elmi lap belə beşikdən öyrənmək lazımdır ki, sonradan gec olmasın. Çünki insan ömrü qısa, yaradılışı daim öyrənməyə möhtac durumda. Elm insanı elə bir pillələrə qaldırır ki, hər pillədə özünü tapmağı və tanımağı bacarmalısan. Hələ elə bir aqil insan tapılmayıb ki, elm, bilik üçün xərclədiyi zamana təəssüflənə. Elə yazımızın qəhrəmanı Nəbi Quliyev də seçilənlərdəndir. Təbii ki, təhsil aldığı orta məktəb şagirdləri arasında.

Quliyev Nəbi Vəli oğlu 17 iyun 2006-cı ildə Qaradağ rayonu Lökbatan qəsəbəsində dünyaya göz açıb. 2012-ci ildən isə Lökbatan qəsəbəsindəki Faiq Rəfiyev adına 166 nömrəli məktəb liseyinə yollanıb. Keçən ilin yayında məcburi köçkünlər üçün Qobu Parkda tikilən mənzillərdə Nəbigilin də ailəsi evlə təmin olunduğu üçün 2018-ci tədris ilindən Nəbi 29 saylı Laçın rayon tam orta məktəbin 7-ci sinifində təhsil almalı olur. O, həmişəki kimi burada da müəllimlərin sevgisini qazanıb, rəğbətini artırıb. Çünki məktəbə qədəm qoyduğu ilk gündən Nəbi dərslərinə çox ciddi məsuliyyətlə yanaşıb. Elə buna görə də o, dərslərindən həmişə əla qiymətlər alır. Nəbi 5-ci sinifdə oxuyanda "Unudulmaz filmlərimiz" adlı müsabiqədə 3-cü yer tutmuş, 6-cı sinifdə isə məktəbdə kecirilən "Kino günü" adlı tədbirdə iştirak edərək sertifikat almışdır. Nəbi nümunəvi, ağıllı şagirdlərdəndir. Bütün fənləri sevir, ona təhsil verən müəllimlərə isə hörməti böyükdür. Azərbaycan dili və ədəbiyyat dərsini deyən Mehparə, riyaziyyatı tədris edən Adilə müəllimə onun ən çox sevdikləridir. Dərslərinə xüsusi maraq göstərən bu oğlan gələcəyinə çox ümidlə baxır. Gələcəkdə ali təhsil almaq və ali rütbələrə yüksəlmək fikrindədir. Evin ilkidir Nəbi bala, həm də tək oğul övladı. Deməli, gələcəkdə bu evin yükü elə Nəbinin üzərinə düşəcək. Buna görə əlindən gələni əsirgəməməlidir ki, böyüyəndə atasına dayaq, anasına fəxarət olsun.

Gələcəkdə hərbiçi olmaq istəyir. Yəqin ki, bu peşəni sevməyinə əsas verən amillərdən biri də Nəbinin Qarabağlı olmasıdır. Axı torpaqlarımızın 20%-i düşmən tapdağı altındadır. Bəlkə də Nəbi düşməndən qisas almaq məqsədi ilə bu peşəni seçib.

Dörd nəfərlik ailədə, ata Quliyev Vəli fəhlə işləyir. Anası Quliyeva Kəmalə evdar xanımdır. Özündən yaşca balaca bacısı Quliyeva Mətanət Vəli qızı isə 3-cü sinifdə oxuyur.

Biz də kollektivimiz adından Nəbiyə təhsilində bol-bol uğurlar və yüksək göstəricilər arzulayırıq.

# QULUZADƏ NURAY



Hədəfə gedən yol çox zaman təhsildən keçir. Hansı peşəyə yiyələnməyin bir o qədər də önəmi yoxdur, önəmli olan peşəyə hansı səviyyədə yiyələnməkdir.

Təhsil insanın gələcək peşəsini, cəmiyyətdəki yerini təmin edən ən mühüm şərtlərdən biridir. Nəzərə almaq lazımdır ki, təhsil diplom almaqdan ibarət deyil. Təhsilini yarımçıq qoymaq və ya təhsil almamaq öyrənməmək deyil. Siz universitetə daxil olub ali təhsilli mütəxəssis də ola bilərsiniz, ümumi orta təhsillə müəyyən peşəyə yiyələnə də bilərsiz. Əsas məsələ peşəkar olmaq, seçdiyiniz peşənin və ya ixtisasın sirlərinə dərindən bələd olmaqdır. Seçdiyiniz sahədə özünüzü təsdiqləməyə çalışmalısınız. Onu da yadda saxlayın ki, insanın xoşbəxt olması üçün var - dövlət, pul kifayət etmir. Allahın sənə verdiyi ömrü səmərəli keçirmək üçün həyatda məqsədin olmalıdır. Jurnalımızın bu yazısı da belə ağıllı şagirdlərdən biri, məqsədcil Nuray Quluzadə haqqındadır.

Quluzadə Nuray Rüzgar qızı 2009-cu ilin noyabr ayının 26-da Ordubad rayonunun Dırnıs kəndində dünyaya göz açıb. 2016-ci ildə 1-ci sinfə yollanan Nuray indi Binəqədi rayonunun Həsən Cəbrayılov adına 99 saylı tam orta məktəbin 3-cü sinif şagirdidir. Gələcəkdə pedaqoq olmaq istəyən bu qız ən cox riyaziyyatı sevir. Ona həmin elmin dərinliklərini öyrədən Sahidə Əsgərovadı. O, müəlliməsini çox sevir və hər dərs onun rəğbətini bir az da çox qazanır. Çünki, savadlı Sahidə müəlliminin öyrətdiyi hər bir dərsi tez qavramağı ilə yanaşı, ev tapşırıqlarını da çox səliqəli və düzgün şəkildə yerinə yetirir. Əlaçı olan Nurayın da şəkili məktəbin fəal, əlaçı şagirdlərinin sırasında, "Şərəf lövhəsində" yer tutub. Sınaq imtahanlarında iştirak edən Nuray dəfələrlə yüksək bal toplayıb. Valideynləri onunla fəxr edir. Nuray həm də məktəbdə nizam-intizamı ilə valideynlərinin başını uca edib. Hər dəfə valideyn iclası olanda Nuray haqqında tərif eşidiblər. Bu ağıllı və bacarıqlı şagird üzgüçülüklə də məşğul olur. Kitab oxumaq isə onun asudə vaxtının səmərəli məşğuliyyətidir.

Ailənin sonbeşiyi olan Nurayın atası Quliyev Rüzgar Sabiroğlu ticarətçi, Anası Yusifova Lətafət Həbib qızı evdar xanımdır. Bacısı Quliyeva Leyla Rüzgar qızı da orta məktəbdə oxuyur.

Jurnalımız adından Nuray balaya dərslərində və gələcək ömür yolunda çoxlu nəaliyyətlər və xoş müjdələr arzulayırıq!



# Zərifə Əziz qızı Əliyeva



**Azərbaycan Respublikasının əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əziz qızı Əliyeva 28 aprel 1923-cü ildə Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.**

1942-ci ildə orta məktəbi bitirdiktən sonra o, Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuş və 1947-ci ildə həmin institutu bitirmişdir.

Sonra o, Moskva şəhərində Mərkəzi həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmolgiya üzrə ixtisaslaşdırma kursu keçmişdir.

1950-ci ildə Zərifə xanım Əliyeva aspiranturaya daxil olmuş və 1953-cü ildə buranı bitirmişdir.

1957-ci ilə qədər Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi, 1960-cı ildən 1967-ci ilə qədər böyük elmi işçi, 1967-ci ildən isə Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri kafedrasının dosenti, professor, görmə orqanının peşə patologiyası laboratoriyasının müdiri, oftalmologiya kafedrasının müdiri (1982-1985) vəzifələrində çalışmışdır.

İllər boyu apardığı müşahidələrin, klinik tədqiqatların və təcrübələrin nəticələri Zərifə xanımın dünyada ən məşhur oftalmologiya mərkəzlərinin birində H.Helmqolts adına Moskva Göz Xəstəlikləri Elmi Tədqiqat İnstitutunda müdafiə etdiyi "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" adlı doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. 1977-ci ildə Zərifə xanım Əliyevaya tibb elmləri doktoru dərəcəsi verilmişdir.

Zərifə xanım Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların, o cümlədən "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərlərin müəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir.

Zərifə xanım Əliyeva yüksək ixtisaslı səhiyyə kadrların hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafıə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, "Vestnik oftalmologiyi" (Moskva) jurnalı redaksiya heyətinin üzvü idi.

1981-cı ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə - görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə professor Z.Ə.Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ. Averbax adına mükafatına layiq görülmüşdür. Geyd olunmalıdır ki, professor Z.Ə.Əliyeva həmin mükafata layiq görülən ilk qadın idi.

Elmi tədqiqatların yüksək səviyyəsi, onların sosial əhəmiyyəti, ictimai fəallığı, pedaqoji istedadı, çoxillik elmi-tədqiqat işlərində böyük xidmətlərini qiymətləndirərək, 1983-cü ildə Zərifə xanım Əliyevanı Azərbaycan SSR EA-nın akademiki seçdilər.

Zərifə xanım Əliyeva göstərdiyi xidmətlərinə görə orden və medallarla təltif olunmuşdu. Azərbaycanın əməkdar elm xadimi kimi yüksək ada layiq görülmüşdür.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri Xiyabanda, atasının qəbri yanında dəfn olunmuşdur.

# Onun xalqı üçün gördüyü işlər danılmazdır və gözümüzün önündədir



***Heydər Əliyevin demokratik dəyəri qiymətləndirmək bacarığı, öz xalqına gələcəyi uğrunda düşüncə və baxışları hər kəsi düşündürməyə səsləyirdi və məhz bunun nəticəsidir ki, İlham Əliyevin apardığı siyasət bu ardıcıllığı özündə təsdiqləyir.***

Dövlətimizin mənafeyi uğrunda aparılan siyasi tədbirlər Heydər Əliyev ideyalarının layiqli davamçısı, gənclərimizin fəxri olan İlham Əliyevin timsalında daha işıqlı gələcək vəd edir. Öz xalqının mənafeyi uğrunda çalışan bir insan İlham Əliyev haqqında danışmaq və söz demək çətin və məsuliyyətli olsa da, onunla bağlı xoş hisslər heç vaxt məni tərk etməmişdir. Xalqın ləyaqətli oğlu İlham Əliyevdən danışarkən ilk növbədə, onun neft proqramını işlənib həyata keçirilməsindəki uğurlu fəaliyyəti ölkəmizdə idmanın hərtərəfli inkşiafı, xüsusilə də xarici siyasət məsələlərində əldə olunan böyük nailiyyət Avropa Şurasında Azərbaycanın ləyaqətlə təmsil olunması nəzərə çarpır. Bu isə Azərbaycanın xarici siyasətində aparıcı yer tutur. İlham Əliyevin hələ seçkiqabağı çıxışları. siyasətlə bağlı fikirləri, yenilik duyğusu hər bir azərbacanlını düşündürməyə bilməz. Bütün bu düşüncələr isə bir amala xidmət edir. Onun haqqında ürək sözlərini fəxr və qürurla söyləmyə sövq edir. Hamıya bəllidir ki, hakimiyyət sükanının səriştəli siyasətçi əlində olması Azərbaycanın inkişafı və çiçəklənməsi deməkdir.

Yalnız görkəmli ictimai xadiim Heydər Əliyev səviyyəsində olmağa qadir olanlar prezidentimizin davamlısı ola bilərlər. Bunun üçün Heydər Əliyevin siyasi məktəbini öyrənmək, onun fəaliyyət fenomeninin incəliklərini dərk edib zəngin təcrübəsindən bəhrələnmək lazımdır. Dünya şöhrətli Heydər Əliyevin oğlu İlham Əliyev isə əsl siyasət məktəbi keçmiş bir şəxsiyyətdir. O, atasından dövləti idarə etmək məsuliyyətini, beynəlxalq əlaqələri düzgün istiqamətləndirmək prinsiplərini siyasi şərtləri və siyasi imici yüksək qiymətləndirməyi çox düzgün mənimsəmişdir. Atanın fəaliyyəti oğula örnək oldu. Ata oğul üçün ideala çevrildi. Atadan oğula bir yol başladı. Bu, haqq yoludur.

Uzun əsrlərdən sonra Azərbaycan öz dövlətçiliyi uğurunda mücadiləyə başladı. Milli azadlıq hərakatı yolunda uğurlu addımlar atıldı. Xalq yaranmış vürsəti əldən vermədi. Şah İsmail Xətainin yaratdığı Azərbaycan dövlətinin 20-ci əsrin əvvəllərində (1918-20-ci illərdə) yenidən bərpasının davamına 21-ci əsrin astanasında yenidən başlandı. Bununla yeni dövrə keçidin bünövrəsi qoyuldu. Amma müstəqilliyinin qazanılması ağrısız-acısız ötüşmədi. Nəhəng dövlətlərin əlində tarix boyu alət olmuş Ermənistan ölkəmiz üçün ən güclü əngələ çevrildi. Təzəcə ayaq tutmaq istəyən müstəqil respublikamıza qarşı elan olunmamış müharibə başladı.

Keçmişimizi xatırlamaqla bu günümüzlə müqayisə etmək istədim. Bu gün xalqımız azad, demokratik şəraitdə yaşayır. Bunun səbəbkarı isə məhz İlham Əliyev cənablarıdır. İlham Əliyev ömrünü xalqa həsr edib. Biz hamımız onu sevir, onunla fəxr edirik, onun adı hamı üçün müqəddəsdir.



# QULİYEVA LEYLA





Savadlı cəmiyyətin qarantı - hər yaşda oxumağı özünə vərdiş edən şəxsdədir. Cəmiyyətin xilaskarı diplomlu cahillər deyil, daim oxuyan, ömür boyu təhsili özünə prinsip edən kamil insanlardır. Çalışmaq lazımdır ki, təhsili elə səviyyədə öyrənəsən ki, gələcəkdə hansısa bir peşəni seçəndə onun kamil bilicisi olasan. Elə bunu indidən hədəfləyən Leyla Quliyeva kimi.

Quliyeva Leyla Rüzgar qızı 24 iyun 2005-ci ildə Ordubad rayonunun Dırnıs kəndində doğulub. 2012-ci ilin tədris ilində ilk dəfə məktəbə yollanan Leyla hazırda Binəqədi rayonu Həsən Cəbrayılov adına 99 saylı tam orta məktəbin 7-ci e sinfində təhsil alır. Böyüyəndə jurnalist olmaq istəyən Leyla mütaliə etməyi çox sevir. Ən çox sevdiyi fənn tarix , bunu tədris edən Rəsulova Yadigar müəllimə isə ən sevdiyi pedaqoqdur. Bədii qiraətdə gözəl bacarığı olan Leyla məktəb tədbirlərində şeir demək intonasiyası ilə seçilir. Əksər həmyaşıdlarından bacarıqlı olması ilə öndə olan Leyla məktəbin əla oxuyanları üçün ayrılmış "Şərəf lövhəsində" fotosu var. Dəfələrlə sınaq imtahanlarına gedən bu qız hər dəfə yüksək bal toplayıb. Leylanın bir qabiliyyəti də gözəl əl işləri ilə bağlıdır. Valideynləri onu həkim kimi görmək istəsələr də, Leyla isə istedadının ona verdiyi üstünlükdən yararlanaraq gələcəkdə jurnalist olmağı hədəfləyib.

Adətən ailənin ilk övladı şirin olduğu qədər məsuliyyət daşıyıcısıdır. Leyla da bu məsuliyyəti dərk edir və ailənin böyük övladı olaraq valideynlərini incitmir. Onun valideynləri də övladlarına qarşı çox diqqətli və təhsillləri üçün əllərindən gələni əsirgəməyəndirlər. Çünki təhsilin insan həyatındakı əhəmiyyətini və övladlarının gələcəyini dərk edirlər.

Atası Quliyev Rüzgar Sabir oğlu ticarətlə məşğul olur. Anası Yusifova Lətafət Həbib qızı isə evdar xanımdır. Bacısı Quluzadə Nuray Rüzgar qızı şagirddir. Hər iki bacı bir-birinə dəstək olmaqla yanaşı, həm də örnəkdirlər.

Biz də jurnalımızın kollektivi adından Leyla balaya dərslərində uğurlar diləyirik. İnanırıq ki, gələcəkdə ən peşəkar, ali savadlı kadr olaraq cəmiyyətimizə öz faydasını verəcək. Bəlkə də jurnalistikamızın ən tanınmış simalarından olacaq.

# SƏFƏRƏLİ MEHRAB





Ölkəmizdə idmançıların sayı günü-gündən artmaqdadır. Çünki dövlətimiz bu istiqamətdə mühüm addımlar atır. Gənclərimizin idmana marağı çoxdur. Demək olar ki, ölkəmiz idmanın hər növü ilə dünya arenasında çıxışları ilə müəyyən mərhələlərə yüksəlib. Üç rəngli bayrağımız dəfələrlə yüksəklərdə məhz idmançılarımızın sayəsində olub.

İdmanın cüdo növü də ölkəmizdə yaxşı inkişaf edib. Cüdo yapon döyüşü sənəti olsa da, ölkəmizdə də bu idman növü ilə müəyyən mərhələyə çatan gənclərimiz az deyil. Hələ bu sahəyə yenicə başlamış azyaşlılarımız da var. Belə azyaşlı idmançılarımızdan biri ilə də dəyərli oxucularımızı tanış etməyə özümüzə borc bildik.

Səfərəli Mehrab Rəşad oğlu 2011-ci ilin mart ayının 6-da Sabunçu rayonunun Zabrat II qəsəbəsində dünyaya göz açıb. 2017-ci ildə məktəbə yollanıb. Hal- hazırda 71 nömrəli tam orta məktəbin 2-ci a sinif şagirdidir. Dərslərində fəal olmağa çalışan Mehrab bala ən çox Azərbaycan dili və riyaziyyat fənnini sevdiyini söylədi. Həm də bildirdi ki, ilk dəfə ona yazmağı və oxumağı öyrədən Şövkət müəllimməsini çox sevir. Dərslərində və idmanda Mehraba daha yaxından köməkliyi dəyən, ən əziz insan, nənəsi Elmira xanımdır. Mehrab dedi ki, mən nənəmi hamıdan çox istəyirəm. Çünki onun qayğısına hamıdan çox nənəsi qalır. Mehrab valideynlərinin də əməyini dəyərləndirir. O, çox yaxşı bilir ki, valideynləri onunla qürur duyur. Böyüyəndə həm idmançı, həm də polis olmaq istəyir bu balaca çox çalışır ki, gələcəyi parlaq olsun.

Cüdoyla ciddi məşğul olmağa hələ təzə başlayıb Mehrab. O, Pirşağı kəndində keçirilən yarışda 1-ci yer tutub. Bu idman növü üzrə müəllimi isə Ruslan müəllimdir. O, Ruslan müəllimə də bizim vasitmizlə təşəkkürünü bildirdi.

Mehrabın başqa bir bacarığı da var. O, gözəl rəsm çəkmək qabliyyətinə malikdir. 2018-ci ilin dekabr ayında "20 Yanvar"a aid çəkdiyi rəsmdə təhsil aldığı məktəb üzrə 2-ci yerə layiq görülüb.

Ailəsi 6 nəfərdən ibarətdir.

Babası Səfərəliyev Axundbala, nənəsi Səfərəliyeva Elmira xanım.

Atası Səfərəli Rəşad Axundbala oğlu dəmirçi işləyir.

Anası Səfərəli Xəmsə Xumran qızı isə evdar xanımdır.

Qardaşı Səfərəli Yusif 3-cü sinifdə oxuyur.

İdmançı balaya dərslərində və idmandə müvəffəqiyyətlər arzulayırıq. Və arzu edirik ki, jurnalımızın növbəti buraxılışlarında Mehrabın yeni uğurları haqqında da məqalə dərc edək.



# Biz bütün varlığımızla İlham Əliyevə dəstək olmalıyıq



***Bu gün biz böyük fəxrlə qeyd edirik ki, ulu öndər, ümummilli lider Heydər Əliyevin timsalında xalqımızın və dövlətimizin şanlı tarixi yolu uğurla davam edir. Bu yolu Heydər Əliyev ideallarına daim sadiq qalan, vətəni, xalqını dərin məhəbbətlə sevən, bütün varlığı ilə xalqına bağlı olan Prezidentimiz İlham Əliyev cənabları uğurla, qətiyyətlə davam etdirir. İlham Əliyev kimi gözəl bir rəhbər bizə Allah-Təala tərəfindən bəxş olunub. Onun daxili və xarici siyasətdə uğurları öz bəhrələrini verməkdədir. Bu uğurlu siyasətin nəticəsidir ki, artıq bütün dünyada, o cümlədən, Avropada Azərbaycanın haqq səsi eşidilir.***

İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi daim xalq tərəfindən sevilir, bəyənilir və dəstəklənir. Azərbaycan dövləti iqtisadi cəhətdən möhkəmlənərək təkcə Cənubi Qafqazda deyil, bütövlükdə postsovet məkanında öncül yer tutaraq lider dövlətə çevrilmişdir. Biz inanırıq ki, Azərbaycan dövləti onu gözü götürməyən düşmənlərinə öz iqtisadi gücü ilə qalib gələcək. Odur ki, biz bütün varlığımızla, bütün qüvvəmizlə Prezidentimiz İlham Əliyevə möhkəm arxa-dayaq olmalıyıq. Xalqımızın və dövlətimizin inkişafı naminə həyata keçirilən bütün tədbirlərdə yaxından iştirak etməliyik.

İlham Əliyevin xalqın sosial həyat şəraitinin daha da yaxşılaşdırılması və regionların sosial inkişafı ilə əlaqədar verdiyi sərəncamlar qarşıda geniş perspektivlər açır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu vəzifəyə seçildiyi ilk gündən "güclü iqtisadiyyat-güclü dövlət" formuluna əməl edir.

Azad bazar iqtisadiyyatı şəraitində qeyri-neft sektorunun yüksəlişi, iqtisadiyyatın neftdən asılılıq dərəcəsinin azaldılması, yeni iş yerlərinin açılması, sosial xarakterli bir sıra problemlərin həlli, şübhəsiz, sahibkarlığın inkişafından keçir. Dünyada baş verən iqtisadi prosesləri dərindən bilən dövlət başçısı İlham Əliyev respublikanın sosial-iqtisadi tərəqqisində özəl sektorun, sahibkarların rolunu həmişə düzgün dəyərləndirir, hökumət strukturları ilə iş adamlarının sağlam əməkdaşlıq etməsini zəruri sayır.

Qısa müddətdə sahibkarların güzəştli kreditlərlə təmin olunması, onların fəaliyyətinə yersiz müdaxilələrin qarşısının alınması, özəl sektorda inkişafa mane olan süni problemlərin həlli istiqamətində bir sıra mühüm addımlar atılması cənab İlham Əliyevin bu sahəyə göstərdiyi diqqətin məntiqi nəticəsidir. Ölkə Prezidenti dəfələrlə vurğulamışdır ki, son illər uğurlu iqtisadi göstəricilərin əldə edilməsində özəl sektorun, milli sahibkarlar təbəqəsinin rolu kifayət qədər böyükdür. O, ayrı-ayrı çıxışlarında inhisarçılıq, sahibkarlara süni maneələrin yaradılması, hüquq-mühafizə orqanlarının iş adamlarının fəaliyyətinə müdaxiləsi hallarını pisləmiş, bu münasibət konkret qərarlarla müşayiət olunmuşdur. Antiinhisar fəaliyyətinin gücləndirilməsi, inflyasiyanın qarşısının alınması üçün tədbirlərin görülməsi, korrupsiyaya qarşı mübarizə üzrə Milli Stategiyanın təsdiqlənməsi, biznes subyektlərinin qeydiyyatı və lisenziya sisteminin sadələşdirilməsi, yerlərdə regional iqtisad və apellyasiya məhkəmələrinin yaradılması kimi tədbirlər də bunun əyani təcəssümüdür.

Ölkə başçısı cənab İlham Əliyev hələ 2003-cü il Prezident seçkiləri öncəsi çox ciddi təşəbbüslərlə çıxış etmişdi. İrəli sürülən bütün təşəbbüslər, verilən vədlər artıq tamamilə həyata keçirilmişdir. Bu bir daha onu göstərir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iqtisadi inkişaf sahəsində yeni iqtisadi təfəkkürü, yeni iqtisadi fəlsəfəni, yeni iqtisadi siyasəti reallaşdırmışdır. İrimiqyaslı və böyük maliyyə tutumlu "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın həyata keçirilməsi Azərbaycanın iqtisadi imkanlarının gündən-günə artmasının daha bir göstəricisidir. Dövlət Proqramının cənab İlham Əliyev tərəfindən qəbul edilməsi heç də təsadüfi deyildir. 1993-cü ildən başlayaraq Azərbaycanda həm sosial, həm iqtisadi, həm siyasi, həm də hüquqi inkişaf yeni mərhələyə qədəm qoymuşdu. Ulu öndərimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş bu inkişaf onun ən layiqli davamçısı - Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da sürətlənmişdir. Bu da bir daha onu göstərir ki, iqtisadi sahədə proqnozlaşdırma və planlaşdırmanın tətbiq olunması çox mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda indiyədək 50-dən çox dövlət proqramı qəbul olunmuşdur. Hesab edirəm ki, ən iri miqyaslı, siyasi, iqtisadi və sosial əhəmiyyətinə görə vacib sənədlərdən biri "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"dır. Bu proqramın təsiri uzunmüddətlidir, miqyası genişdir, əhəmiyyəti təkcə bu gün deyil, həm də gələcək üçün hesablanıb. Amma onu vurğulamaq vacibdir ki, Dövlət Proqramının reallaşmasında, uğurlu icrasında cənab İlham Əliyevin siyasi iradəsi, qətiyyəti mühüm rol oynayır. Əminik ki, qarşıdakı illərdə qazanılmış uğurlar yeni nailiyyətlərin əsasını təşkil edəcəkdir.

Hazırda Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq 2013-2020-ci illərdə regionların sosial-iqtisadi inkişafı ilə bağlı yeni Dövlət Proqramının həyta keçirilməsi üzərində iş gedir. Əminəm ki, bu proqramla da Azərbaycan özünün sosial-iqtisadi inkişafının keyfiyyətcə yeni bir mərhələsinə qədəm qoyacaq, abadlıq-quruculuq tədbirləri daha geniş vüsət alacaq, ölkəmizin regionda, dünyada nüfuzu daha da möhkəmlənəcəkdir.

# Fətullazadə Heydər Arzu oğlu



Elm elə bir binadır ki, onun hər bir daşını qoymaq bir çox alimlərə ömrü müqabilində müəssər olmuşdur. Gələcək nəsillərin savadlı, dünya görüşlü olması naminə öz canlarını qoyan insanların gördükləri işlərdən bu gün də faydalanırıq. Müxtəlif dünyəvi elmlər yarandıqdan sonra zaman-zaman hər şey onların libasına bürünüb səliqə-səhmana düşdü. Dünyanı xilas edən savadlı, elmin sirlərinə yiyələnmiş şəxslər olacaq. Bu cür gənclər Azərbaycanın hər bir yerində yetişir. Bu cür yeniyetmələrdən biri haqqında bu yazıda bəhs edəcəyimiz Fətullazadə Heydər Arzu oğludur. O, 10 May 2004-cü Yardımlı rayonunun Anzov kəndində dünyaya gəlmişdir. Elm yoluna ilk qədəmlərini uğurla atan Heydər, 2010-cu 32 saylı Ağdam məktəbinin 1-ci sinfinə daxil olmuşdur. Məktəb həyatında fəal iştirak edən Heydər, hazırda həmən məktəbin 9-cu sinif şagirdidir. Kiçik dostumuz ona tədris olunan bütün fənlərdən yüksək qiymətlər alır. Əlaçı olmasına baxmayaraq Heydər ən çox riyaziyyat fənninə maraq göstərir. Ən sevimli müəllimləri isə Rəşadət və sinif rəhbəri olan Afaq müəllimədir.Heydər asudə vaxtlarını da qeyri-səmərəli keçirmir. O, boş vaxtlarında idmanla məşğul olur. Mütaliyəyə də olduqca marağı olan Heydər, gələcəkdə polis əməkdaşı olub, xalqına şərəf və ləyaqətlə xidmət etmək istəyir. Adı çəkilən qəhrəmanımızın ailəsi 4 nəfərdən ibarətdir.

Atası Fətullayev Arzu Çiləxan oğlu sürücüdür.

Anası Fətullayeva Şəfəq Bəxtiyar qızı evdar xanımdır.

Qardaşı Fətullazadə Toğrul Arzuman oğlu 4-cü sinif şagirdidir.

Həmçinin biz də kollektivimiz adından Heydəri təbrik edir, uğurlarının axarıncı olmasını diləyirik. Biz inanırıq ki, Azərbaycanımızın gələcəyini Heydər kimi çalışqan şagirdlər quracaqdır.



# SƏFƏRƏLİ YUSİF





Yəqin ki, idman yaşı bəşərin yaşı qədərdir. Bəşər inkişaf etdikcə idman da onunla bərabər böyüyüb boy atmışdır. Dünyanın hər yerində yaşından asılı olmayaraq hamı idmanı və idman yarışlarını çox sevir. Idman təkcə fiziki cəhətcə insanların güclənməsinə və inkişaf etməsinə səbəb olmur, həmçinin onları gündəlik həyatda daha hazırlıqlı və mütəşəkkil edir. Ən yaxşı fiziki hərəkətlər təkrarlanan hərəkətlər olan məşğələlərdir. Məsələn, yerimə, qaçış və ya üzmə. Həmçinin ölkəmizdə Yapon idman növü olan Cüdo da geniş yayımışdır. Gənclərimizin əksəriyyəti bu idman növünə meyil göstərir.

Səfərəli Yusif də idmana can atan azyaşlılarımızdandı.

Səfərəli Yusif Rəşad oğlu 2010-cu ilin yanvar ayının 31 də Sabunçu rayonunun Zabrat II qəsəbəsində dünyaya gəlib. 2016-cı ildə məktəbə yollanan Yusif hazırda 71 sayli tam orta məktəbin 3b sinifində təhsil alır. Dərslərindən əla qiymətlər alan Yusif “Tural tədris mərkəzinin ” təşkil etdiyi bilik yarışmasında 2-ci yerə layiq görülmüşdür.Yusif bala idmanla da məşgul olur.

Cüdoçu olmağa yenicə başlayan Yusif Bakı ətrafı rayonlarda dəfələrlə yarışlara qatılmış və dəfələrlə 1-ci yerə çıxmışdır. Yusif İsmayıllı rayonunda keçirilən yarış zamanı 1-ci yerə çıxaraq Fəxri Fərmanla təltif olunmuşdur, Dərbənddə keçirilən yarışda isə 2-ci yerə layiq görülmüşdür. Belə yarışlarda toplam 13 medal və 13 Diplom qazanmış Yusif hələ dünya çemponatı yarışlarına qatılmaq arzusundadır. Atasını fəxri olan Yusif çalışır ki, gələcəkdə ailəsinin başını uca tutsun. Valideynlərinin ona olan qayğısını qiymətləndirərək çalışır ki həm orta məktəbdə gündəlik dərslərə tam hazır olsun, həm də idman məktəbində cüdonun sirlərini tam dərindən öyrənməklə gələcəyin güclü-qüvvətli idmançısı olsun. Axı Yusif bilir ki, o gələcəyin bir əsgəridir. Vətənin keşiyində durmaq üçün Yusifə güc-qüvvət lazımdır.

Babası Axundbala, nənəsi Elmira, atası Rəşad, anası Xəmsə, qardaşı Mehrab Yusifin gələcəkdə məhşur idmançı olacağına əmindirlər.

Biz də jurnalımızın kollektivi və oxucularımız adnından Yusifə dərslərindən nəaliyyətlər və idmanda Azərbaycanımızın bayrağını yüksəklərə qaldırmağını arzulayırıq. Uğurların bol olsun Yusif!

# DƏMİROVA ZƏHRA




İnsan özünu tanıyandan yazıb yaratmaq, tikib-qurmaq, daim kəşf etmək istəyir. Bir sözlə, özünü hansısa bir peşənin "memarı" təsəvvür edir. Bəs insan nə etməlidir ki, qurduğu təməlin bünövrəsi möhkəm olsun?!

İnsan doğulduğu ailədə dil açır, ilk kəlməsi ana olur. Ilk dəfə, "Ana " deməyi qucağına yüyürdüyü anadan öyrənsə də, ilk dəfə bu kəlməni öyrədən müəllimləri olur. Elmin dərinliklərini müəllimindən öyrənən insan gələcək həyatının təməlini də elə təhsil aldığı məktəbdən başlayır.

Sizi tanış edəcəyimiz müsahibimiz gələcəyin memari, müəllimi, incəsənət xadimi, lap belə bəlkə də alimi ola bilər. Amma o, belə düşünmür. Gələcək üçün özünün balaca dünyasında özünəməxsus xəyalları var. O, bəlkə hələ məktəbdə partada əyləşdiyi zaman yadına ya oyuncaqları düşür, ya da anası üçün darıxır.

Dəmirova Zəhra Murad qızı 29 aprel 2012-ci ildə Sabirabad rayonunun Qalaqayın kəndində dünyaya göz açıb. Onun dünyaya gəlişi bütün qohumlarının, atasının, anasının böyük sevincinə səbəb olub. Bahar fəslində doğulan Zəhra bala sanki evlərində bahar ətirli bir çiçək kimi təravət saçır. Valideyinləri Zəhranı göz bəbəkləri kimi qoruyurlar. Ona görə ki, Zəhra evin yeganə övladıdır.

Beləcə, bu balaca qızcığaz 2018-ci ilin ilk dərs günü məktəbə yollandı. Nəhayət, Zəhra ilk dəfə yeni çantasına məktəb ləvazimatlarını yığıb məktəbə üz tutdu. Valideynlərinin gözləri sevinc yaşı ilə dolmuşdu o gün bəlkə də. Çünki Allah Zəhranı onlara 5 ildən sonra vermişdi. Bu sevincli gündə ən çox sevinənlərdən Arif, Əliyar baba, Nənəş, Sevil nənə daha qürur hissi keçirdilər.

Hazırda Sabirabad rayonu Əli Qurbanov adına Qalaqayın kənd tam orta məktəbin 1-ci sinif şagirdi olan Zəhra elə ilk gündən Mətanət müəllimənin hörmətini qazandı. Dərslərinə çox həvəslə maraq göstərir. Dərslərində əla qiymətlərə sinifin nümunəvi şagirdidir bu balaca qız. Boş vaxtlarında idmanla məşğul olur. Anası deyir ki, Zəhra çox məsuliyyətli uşaqdır. Gələcəkdə isə həkim olmaq istəyir.

Zəhranı hamıdan çox istəyən atası Muratdır. Atasının şəxsi biznesi var, anası Ayidə evdar xanimdır.

Ailənin yeganə övladı olan Zəhraya dərslərində, gələcək həyatında uğurlar diləyirik. Arzulayırıq ki, gələcəyin ən yaxşı həkimi olsun.



# Fətullazadə Toğrul Arzu oğlu




Bir xalq yalnız savadlı cəmiyyəti, inkişaf etmiş elmi ilə qürur duya bilər. Yalnız savadlı cəmiyyətlə irəli getmək, uğurlara nail olmaq, ölkəni tanıtmaq mümkündür. Elmin vacibliyini hələ qədim zamanlardan dərk ediblər. Ta qədim zamanlardan elmdə nailiyyətlər əldə etmək üçün çalışıblar. Təbiəti öyrənib, bununla cəmiyyəti məlumatlandırmağa səy göstəriblər.

Elm obyektiv, sistemli və əsaslandırılmış biliklərin əldə edilməsinə, dəqiqləşdirilməsinə və yayılmasına yönəlmiş insan fəaliyyəti növüdür. Bu fəaliyyətin əsasını elmi faktların toplanması, onların daima yenilənməsi və sistemləşdirilməsi, tənqidi analizi və bu əsasda elmi biliklərin toplanması təşkil edir. Elm təkcə müşahidə edilən təbiət və ictimai halları təsvir etmir, həm də onların əlaqələrini tapır və nəticəni müəyyən edə bilir.

Ölkəmizin müxtəlif yerlərində təhsilə önəm verən savadlı şagirdlərindən biri də Fətullazadə Toğrul Arzu oğludur.O, 5 Dekabr 2008 -ci ildə Bakı şəhərində anadan olmuşdur. Elm yoluna ilk qədəmlərini 32 saylı Ağdam rayon məktəbində atan Toğrul,2015-ci ilin sentyabrında birinci sinfə getmişdir. Hal-hazırda 32 saylı məktəbin 4-cü sinifində təhsilini davam etdirir. Ona keçilən bütün fənləri əla mənimsəyən Toğrul nizam intizamına və savadına görə tərifnamə ilə təltif edilmişdir. Məntiqi təfəkkürü ətrafında baş verən hadisələrə reaksiyası ilə müəllimlərin diqqətini cəlb edən kiçik qəhrəmanımız boş vaxtlarını ən gözəl məşğuliyyət olan kitab oxumağa sərf edir. Valideynlərinin sevimlisi olan Toğrul gələcəkdə həkim olub, xəstə insanlara şəfa vermək istəyir.

Toğrulun ailəsi 4 nəfərdən ibarətdir.

Atası Fətullayev Arzu Çiləxan oğlu sürücüdür.

Anası Fətullayeva Şəfəq Bəxtiyar qızı evdar xanımdır.

Qardaşı Fətullazadə Heydər Arzu oğlu 9-cu sinif şagirdidir.

Balaca Toğrula jurnalımız adından uğurlar diləyirik. Hər zaman ata ananın fəxr yeri olasan. Gələcək həyatında bol ruzi bərəkət və şans səninlə olsun!

# Gözəlova Aytən Tural qızı





Elm elə bir nemətdir ki, beşikdən qəbirədək öyrənsən belə sonu yoxdur. Ucsuz-bucaqsız kainatı kəşf etməyi hələ indiyə qədər heç kəs tam bacarmasa da lakin, bəzi insanlar ömürlərinin yetdiyi qədər bağlı qapıları açmağa çalışmışlar. Elm təbiət kitabını oxuyur və öyrəndiklərini təbiətin öz üzərində istifadə edir. Amma dünyəvi elmləri mahircəsinə öyrənib, mənəviyyatdan geri qalan şəxs ən “kasıb” insandır.

İnsan əgər sevdiyi işlə məşqul olarsa daim uğur qazanacaqdır. Bir işi əlləri və beyni ilə görən şəxs usta, əlləri, beyni və ürəyi ilə görən şəxs isə sənətkardır.

Elə yazımızın qəhrəmanı Aytən Gözəlova da gələcəkdə işini əli, beyni, ürəyi ilə görəcək sənətkarlardan olmaq istəyir.

Gözəlova Aytən Tural qızı 20 Avqust 2006-cı ildə Bakı şəhərində dünyaya göz açmışdır. Birinci sinfə 2013-cü ilin sentyabrında 29 nömrəli tam orta məktəbə gedib. Hazırda həmən məktəbin 6-cı sinfində təhsil alır. Aytən balamız dərslərində fəal və çalışqan şagirddir. Ən çox maraq göstərdiyi fənn isə riyaziyyat fənnidir. Mehriban və qayğıkeş olduğu üçün Adilə müəllimi lap çox sevən Aytən, hətta boş vaxtlarında da riyazi misal və məsələlər həll edir. Kiçik xanımın dediyinə görə o, gələcəkdə model olmaq istəyir. Valideynlərinin əzizi olan Aytənin ailəsi 4 nəfərdən ibarətdir.

Atası Gözəlov Tural Mürkağa oğlu mebel ustasıdır.

Anası Pənahova Sahibə Xudaverdi qızı evdar qadındır.

Qardaşı Gözəlov Hüseyn Tural oğlu 7 Aprel 2008-ci ildə anadan olmuşdur. Hal-hazırda 4-cü sinifdə təhsil alır.

Redaksiyamız və kollektivimizin üzvləri adından Aytənə uğurlar diləyirik. Ümid edirik ki, Aytən Azərbaycanımızın bayrağını uğurları ilə həmişə yüksəklərdə dalğalandıracaq.



# BABAYEVA HÜRÜ





Mərifət sahibləri arasında hər şeyi olduğu kimi dərk etməyi, hər işi lazımı kimi yerinə yetirməyə hikmət deyilir! Bunun nəticəsində insanın mənəviyyatı mümkün qədər təkmilləşməli, arzu edilən səviyyə yüksəlməlidir. Belə olduqda hikmət iki yerə bölünür. biri-elm, o biri əməl.

Elm- varlıqların həqiqətən necə olduqlarını düzgün təsəvvür etmək, insanın yaradıcı ağılı və düşüncəsi dairəsində onun xüsusiyyət və keyfiyyətlərini kəşf etməkdir!

Əməl isə gizli qüvvələri ortaya çıxarmaq, müxtəlif sənəd və peşələrdən fayda götürmək, müxtəlif iş vərdişləri əldə etmək üçün göstərilən fəaliyyətə deyilir. Bu şərtlə ki, o, bəşəriyyətin qüdrətinin artmasına, onun təkmilləşməsinə səbəb olsun. Kimdə bu iki fəzilətdən hər ikisi varsa, o ən müdrik insan, ən kamil alim hesab edilər. Onun yeri bəşər övladının tuta biləcəyi ən yüksək mövqeyin fövqündə olar! Necə ki, buyurublar, “Kimi istəyirsə ona hikmət verir, kimə hikmət verirsə ona böyük nemət verir”! Bəli, yetərki sən istə.

Babayeva Hürü Mübariz qızı 12 noyabr 2007-ci ildə Şəmkir rayonunda dünyaya göz açıb. 2013-cü ildə məktəbə yollanan Hürünün yaşı məktəbə çatmırmış. Heç anası da qızının məktəbə tez getməsində israrlı deyilmiş. Amma Hürünün fəallığı bura özünü büruzə verib. Təhsil Nazirliyinin göstərişinə əsasən Hürü imtahan verib və keçid balını toplayır. Elə həmin il də 1-ci sinfə qəbul olunub. Hal-hazırda Fizuli rayon 1 saylı tam orta məktəbinin 6-cı sinif şagirdidir. Dərslərində çox fəal olan Hürü çox yaxşı oxuyur və məhsuliyyətli olmağına görə yaşıdlarından fərqlənir. O, dəfələrlə “Diplom” və “Fəxri Fərmanlar”ın sahibi olub. Buna səbəb hər tədris ilinin sonunda əla qiymətlər almasıdır. Gözəl şeir demə qabliyyəti ilə yanaşı yaxşı rəsm çəkməyi bacarır. Məktəb tədbirlərində yüksək səviyyədə şeir deyir. Dərslərini həvəslə hazırlayır. Ən çox tarix fənnini sevdiyini bildirdi. Hürü jurnalımız vasitəsi ilə ona dərs deyən Şəhla, Vüsalə, Rəqsanə, Rita, İradə, Aytən müəllimlərinə təşəkkürünü bildirməyimizi xahiş etdi.

Ailədə 4 nəfərdən ibarətdirlər. Atası Babayev Mübariz Ayaz oğlu sürücü işləyir, anası Səfiyeva Səliqə Həsən qızı evdar qadındır. Qardaşı Fərid 4-cü sinifdə oxuyur. Əlaçıdır.

Biz də öz növbəmizdə özümüzə borc bilib, Hürü balaya dərslərində uğurlar, gələcəkdə bol-bol müvəffəqiyyətlər arzulayırıq!

# BABAYEV FƏRİD





Elm hər dildə birdir. O ideyalar dramıdır. Elmdə heç bir idea ehkam deyil, hər bir adam ən məhşur alimin ən çox yayılmış ideasını da istənilən vaxt yoxlamaq səlahiyyətinə malikdir. Elm neçə əsrlər ərzində hamılıqla tikilən möhtəşəm bir məbəddir ki, onun hər bir daşını qoymaq bir çox alimlərə bütün ömrü müqabilində müəssər olmuşdur.

Həyatda insan bir çox amal uğrunda çalışır. Lakin bir çox şeyi əldə etmək üçün öncəlik təhsildə, elmdə və bilikdə olmalıdır. Çünki bütün amala, istəyə gedən yolda yolumuzu aydınladan bizim savadımız, elmimiz və dünyagörüşümüz olur.

Babayev Fərid Mübariz oğlu 2007 -ci ilin noyabrın 12 - də İmişli rayonunda anadan olub. Hazırda Fizuli rayonunun 1 saylı tam orta məktəbin 4 b sinfində təhsil alan Fərid məktəbə ilk qədəmlərini 2015-ci ildə qoyub. Elə ilk gündən məktəbi çox sevib. Fərid hər dərs ili sonuna oxuduğu il boyu təsildə göstərdiyi yüksək göstəriciliyinə görə dəfələrlə "Fəxri Fərman" və "Diplom"larla təltif olunmuşdur. Elm almaq, təhsil almaq, savadlı olmaq üçün çox çalışmalı olduğunu bilir. Elə buna görə də istəyir ki, valideynlərinin və müəllimlərinin ehtimadını daha da doğrultsun. Elə valideyinləri qədər müəllimləri də Fəriddən çox razıdırlar. Valideynlərinin qürur hissi mənbəyidir Fərid balamız.

Azərbaycan dili və həyat bilgisi fənnini çox sevir. Hər gün dərslərini həvəslə oxuyur və ev tapşırıqlarını vaxtında həll edir. Hələ balaca olsa da çox yaxşı bilir ki, gələcəkdə müəyyən mərhələyə çatmaq üçün, müəyyən peşəyə yiyələnmək üçün gedilən yol təhsildən, elmdən gedir. Böyüyəndə polis olmaq istəyir. Polis olub vətənin keşiyini çəkmək, qanun pozğunluğuna imkan verməmək istəyir.

Fərid hələ idmanla da məşğul olur. "Sağlam bədəndə sağlam ruh olar" deyimini əsas tutur. İdmanın Cüdo növü üzrə yarışmalarda müəyyən mərhələlərə yüksəlmiş və yenə də "Diplomla" təltif olunmuşdur. O həm də yaxşı futbol oynamağı bacarır. Boş vaxtlarında dostları ilə birlikdə futbol oynayır.

Atası Babayev Mübariz orta ali təhsillidir (texnikom qurtarıb), hazırda "Taxi" şoferidir. Anası Babayeva Səliqə (Maliyyə kredit texnikomunu qurtarıb) evdar xanımdır. Bacısı Hürü isə 6-cı sinif şagirdidir.

Bizlərdə öz jurnalımız adından çalışqan və ağıllı Fəridə təhsildə və gələcək həyatında uğurlar arzulayırq!



# Həmzəli Firdovsi Seymur oğlu





Savad və biliyin insan həyatında o qədər önəmli rolu var ki, nə qədər sadalasaq bitməz ki, bitməz. Təhsil insanın həyatda ayaq üstə dura bilməsi üçün ən önəmli faktorlardan biri və daha dəqiqi ən önəmlisidir. Əgər diqqət yetirsək görərik ki, savadlı insanların haqlarını əlindən almaq onlara qarşı qanunsuzluq etmək demək olar ki, mümkün deyil. Ona görə də övladlarımızı savadlı yetişdirmək bir valideyn kimi borcumuzdur. Çiçəklənən Azərbaycanımızın hər yerində savadlı, dərin düşüncəyə malik gül balalar yetişir. Onlardan biri də haqqında danışacağımız Firdovsidir.

Həmzəli Firdovsi Seymur oğlu 29 oktyabr 2010-cu ildə Sabirabad rayonunda dünyaya gəlmişdir. Firdovsi 2017-ci ildə Hacı Zeynalabdin Tağıyev adına 6 saylı tam orta məktəbin 1-ci sinfinə daxil olmuşdur.Hələ birinci sinifdə fəallığı və düşüncə tərzi ilə seçilən Firdovsi hazırda adı çəkilən orta məktəbin 2-ci sinfində təhsilini davam etdirir. Orta təhsilin ibtidai pilləsində olan Firdovsi, ona tədris olunan bütün fənlərdən yüksək qiymətlər alır və əlaçıdır. Firdovsi deyir ki, o boş vaxtlarını da maraqlı keçirmək üçün kitab oxuyur. Ona keçilən dərslərin hamısını mənimsəməsinə baxmayaraq kiçik dostumuz, riyaziyyat fənnini xüsusi həvəslə öyrənir. Bu fənni ona tədris edən Abdullayeva Validə müəlliməni isə çox sevir.

Gələcəkdə ləyaqətli və məsuliyyətli peşə kimi hüquq sahəsinin seçən qəhrəmanımızın ailəsi 5 nəfərdən ibarətdir.

Atası Həmzəyev Seymur sürücüdür.

Anası Həmzəyeva İlahə evdar qadındır.

Firdovsinin iki bacısı var. Həmzəyeva Nərmin və Həmzəyeva Lamiyə.

Onlar da orta məktəb şagirdidir.

Rəhbərliyimiz və redaksiyamızın kollektivi adından Firdovsini səmimi qəlbdən təbrik edir, ona gələcək həyatında bol ruzu, böyük uğurlar arzulayırıq. Hər zaman valideynlərinin üzünü ağ edəsən, əziz Firdovsi bala!

# Ələsgərova Mədinə Elşən qızı





Əmr etdi, verildi fərman,
Alimdir gözümdə ən əziz insan.
Elmlə, hünərlə! Başqa cür heç kəs,
Heç kəsə üstünlük eyləyə bilməz!

Elm həqiqəti öyrənir, həyatın qanunauyğunluqlarını, təbiətin sirlərini bir-birinin ardınca kəşf edir.

İnsan yalnız elmi, təhsili, hərtərəfli dünyagörüşü ilə başqalarından fərqlənə bilər.

Hər birimiz hər an yeni bir bilgi əldə etməyə çalışmalı, təhsilimizi, biliyimizi artırmalıyıq. Çünki, bilik və təhsil almadan heç nə əldə edə bilmərik.

Məhşur Azərbaycan şairi N. Gəncəvi hələ 10 əsr bundan əvvəl elmin gücü haqqında yuxarıdakı misraları deyirdi. Azad cəmiyyətdə yaşayan bir fərdin ən güclü silahı onun savadıdır. Haqqında danışdığımız Mədinə də azyaşlı olmasına baxmayaraq öz savadı ilə seçilir

Ələsgərova Mədinə Elşən qızı 27 iyul 2008-ci ildə Sabirabad rayonunun Qalağayın kəndində anadan olmuşdur. Elmin incəliklərini öyrənməyə ilk addımlarını 2014-cü ildə atan Mədinə, Hacı Zeynalabdin Tağıyev adına 6 saylı tam orta məktəbin 1-ci sinfinə daxil olmuşdur. Məktəbdə müəllimələrinin, evdə valideynlərinin sevimlisi olan Mədinə balamız, hazırda adı çəkilən məktəbin 5-ci sinif şagirdidir. Ona verilən tapşırıqları məharətlə yerinə yetirən kiçik dostumuz, əlaçıdır. Mədinənin sözlərinə görə ən çox sevdiyi fənlər ingilis dili, riyaziyyat və doğma dilimiz olan Azərbaycan dilidir. Bütün müəllimlərini çox sevən Mədinə, Gülzar və Məlahət müəllimləni lap çox sevir.Qəhrəmanımız boş vaxtlarında televiziya verlişlərinə baxmaqdan böyük zövq alır. Gələcəkdə həkim peşəsinin sahibi olmaq istəyən Mədinənin ailəsi 5 nəfərdən ibarətdir.

Atası Ələsgərov Elşən 11 yanvar 1973-cü il təvəllüdlüdür. O avtomobil ustasıdır.

Anası Ələsgərova Şəlalə 12 Fevral 1976-cı ildə dünyaya gəlib, evdar qadındır.

Qardaşları Ələsgərov Əliheydər və Ələsgərov Rövşən, 1993 və 1995-ci il təvəllüdlüdürlər.

Biz də Mədinə balamıza bol şans və uğurlar arzulayırıq. Şans hər zaman səninlə olsun. Həmişə ata-ananın və müəllimlərinin fəxri olasan.



# RÜSTƏMOV ÜLVİ



Bilik- insanın özü və onu əhatə edən aləm və bu aləmin amilləri haqqında məlumat toplusudur, bilik mühəndisliyi baxımından bilik formalaşdırılmış informasiyadır. Bilik praktiki fəaliyyət və peşəkar təcrübə nəticəsində alınan predmet sahəsinin qanunauyğunluqları olub həmin sahədə mütəxəssislərə məsələ qoymağa və həll etməyə imkan verir.

Rüstəmov Ülvi Əzim oğlu 2006-cı il avqustun 30-da Bakıda anadan olmuşdur. 2012-ci ildə 1-ci sinfə yollanan Ülvi hal-hazırda Binəqədi rayonundakı 99 nömrəli tam orta məktəbin 7e sinfinin ən çalışqan şagirdidir. O, bacısı Ülkərlə eyni sinifdə, lap elə eyni partada əyləşir. Hər iki bacı qardaş çox məsuliyyətli, tərbiyyəli şagirddirlər. Ülvi çox yaxşı şer demək qabliyyətinə malikdir. Elə bu bacarığına görə də 2018-ci ildə Türkiyənin istanbul şəhərində keçirilən"Sağlam qida - Sağlam nəsil" layihəsi çərçivəsində "Sağlam davranış" sərgi - müsabiqəsində fəal iştirakına və gözəl şer demə qabliyyətinə görə "Tərifnamə" ilə təltif olunmuşdur. Ülvinin anası deyir ki, mən oğlumla qürur duyuram. Atalarını çox vaxtsız itirməklərinə baxmayaraq, anaları çalışıb ki, övladları heç kimdən geridə qaımasınlar. Bu zəhmətkeş ana övladlarının yaxşı təhsil alması üçün əlindən gələni əsirgəmiyib. Atasını itirəndə Ülvinin hələ heç 1 yaşı da tamam deyildi. 5 aylıq olanda atası ağır yol qəzası zamanı dünyasını dəyişən Ülvi ata sığalının nə olduğunu heç vaxt hiss etməyib. Anaları orta təhsilli olduğu üçün övladlarını dolandırmaqda bir qədər çətinliklər çəkmək məcburiyyətində olub. Elə bunu görən Ülvi çalışır ki, tez böyüyub ali məktəbə qəbul olsun. Tezliklə normal bir iş sayyəsində anasını bu qayğıdan xilas etsin.

Atası Rüstəmov Əzim Xanlar oğlu orta təhsillidi. O 2008-ci ildə dünyasını dəyişib. Anası Əzimova Mehriban Vahid qızı evdar qadındır. Böyük bacısı Ülviyyə ailəlidir, digər bacısı Ülkər isə Ülvi ilə bir sinif şagirdidir.

Sonda Ülviyə ən başlıcası can sağlığı, dərslərində və gələcəkdə uğurlar diləyirik!

# Şəmilov Hüseyn Elmir oğlu





Savadlı, dünya görüşlü insanların qayğısı altında olan xalq, heç zaman zərər görməz. Yaşadığımız ucsuz-bucaqsız bu dünyanın sirlərini aşkara çıxarmaq, illər boyu miflərə, xəyali varlıqlara inanan insanlara həqiqəti çatdırmaq elmli insanların boynuna düşmüş bir vəzifədir. Dünyanın yaşı artıqca elm sahəsi də inkişaf edir, yeni yeni uğur və nəaliyyətlər qazanır. Əvvəllər elmin sərhədləri olan yer, indi onun mərkəzidir. Təbiətdə demək olar ki, dəqiq heç nə yoxdur. Hər bir dəqiq elm dəqiq faktlara söykənir.

Şəmilov Hüseyn Elmir oğlu 18 aprel 2009 cu ildə Bakı şəhərində doğulub. Hüseyn, 2015-ci ildə 32 saylı tam orta məktəbin 1-ci sinfinə gedib. Məktəbə qədəm qoyduğu qısa müddətdə nizam-intizamı, fəallığı ilə seçilən kiçik dostumuz, tez bir zamanda müəllimlərin və sinif yoldaşlarının sevimlisinə çevrilmişdir. Hazırda adı çəkilən orta məktəbin 4-cü sinfində təhsil alan Hüseyn, Azərbaycan dili, riyaziyyat, ingilis dili fənlərinə xüsusi marağı var. Ən sevimli müəllimləsi isə İradə müəllimədir.

Dərslərini və ev tapşırıqlarını yerinə yetirdikdən sonra qalan asudə vaxtını futbol oynamaqla keçirmək Hüseynin ən sevimli məşğuliyyətidir. Qəhrəmanımızın sözlərinə görə gələcəkdə prokuror olmaq istəyir.

Hüseynin ailəsi 4 nəfərdən ibarətdir.

Atası Şəmilov Elmir 1985-ci ildə dünyaya gəlmişdir. O,sürücüdür.

Anası Səmədova Alidə 1986-cı il təvəllüdlüdür. Alidə xanım evdar qadındır.

Qardaşı Şəmilov Həsən 1-ci sinif şagirdidir.

Redaksiyamız adından Hüseyni və onun valideynlərini təbrik edir, ona gələcək peşəsində bol ruzi-bərəkət və möhkəm can sağlığı arzu edirik.



# Əlili Sənan Heydər oğlu






Elmin insan həyatının çiçəklənməsində müstəsna rolu var. Elmin nəaliyyətləri nəticəsində bəşər həyatı daha da gözəlləşməyə doğru irəliləməkdədir. Elm zülmətdən işığa və səadət nuruna yetişməkdə bəlkə də yeganə vasitədir. Hər bir cəmiyyətin həyat səviyyəsinin yüksəlişi, tərəqqisi, həmin toplumda elmin inkişafından, elmə marağın hansı səviyyədə olmasından və daha bir çox elmlə bağlı ünsürlərin həmin cəmiyyətdə olub-olmamasından asılıdır. Cəhalət və savadsızlığın hakim olduğu bir təbəqə və cəmiyyət gec-tez süquta məhkumdur.

Savadsızlığa qarşı çıxıb əlindən dəftər-kitab düşməyən bacarığlı və savadlı şagirdlərimizdən biri də Sənan Əlilidir.

Əlili Sənan Heydər oğlu, 13 iyul 2009-cu ildə Sabirabad rayonunun Qalaqayın kəndində doğulmuşdur. Uşaq yaşlarından daim yeni şeylər öyrənməyə həvəsli olan Sənan 2015-ci ilin sentyabrında Hacı Zeynalabdin Tağıyev adına 6 saylı tam orta məktəbin 1-ci sinfinə daxil olmuşdur. Hələ məktəbə getdiyi ilk vaxtlarda qeyri-adi istedadı sayəsində müəllimlərinin diqqətini çəkməyi bacarıb. Hal-hazırda 6 saylı məktəbin 4-cü sinifində təhsil alan Sənan sinif əlaçısıdır. O tədris olunan bütün fənlərdən yüksək qiymətlər aldığına görə dəfələrlə məktəb rəhbərliyi tərəfindən fəxri fərmanlarla təltif edilib. Sənanın ən çox sevdiyi fənlər ingilis dili və riyaziyyat, ən çox sevdiyi müəllimləri isə ona bu fənləri doğmalaşdıran Lalə və Aynur müəllimədir. Boş vaxtlarını səmərəli keçirən dostumuz, kitab oxumağı və müxtəlif mənbələrdən maraqlı məlumatlar toplamağı xoşlayır. Gələcəkdə xarici dil müəllimi olmaq istəyən Sənanın ailəsi 4 nəfərdən ibarətdir.

Atası Əliyev Heydər Məhəmməd oğlu usta işləyir.

Anası Əliyeva Nuranı Novruzəli qızı evdar qadındır.

Bacısı isə 2-ci sinif şagirdidir.

Jurnalımızın rəhbərliyi və işçi heyyəti adından Sənanı təbrik edir və inanırıq ki, Sənanın timsalında bütün savadlı gənclərin ölkəmizin gələcək həyatında çox böyük rolu olacaq. Əziz Sənan balamız hər zaman valideynlərinin fəxr yeri olasan. Uğurların bol və davamlı olsun.

# Məmmədov Uğur Nihad oğlu





Həyatda elə adamlarla dost olmaq lazımdır ki, onlarla söhbət, yaxşı bir kitab oxumağa bərabər olsun və elə kitablar oxumaq lazımdır ki, onların mütaliəsi filosoflarla söhbətə dəysin. Elm adamlarının qiymətini bilməyən, onlara layiq olduqları mükafatı verməyən ölkələr inkişaf edəcəklərinə ümid bəsləməsinlər. Əgər elmi, təhsili bir müharibə meydanına bənzətsək, yaradıcı alimlər ön cəbhədə döyüşən əsgərləri xatırladar. Elmin isə başlanğıcı ibtidai təhsildən, hətta məktəbəqədər təhsildən başlayır.

Ölkəmizdə də incəsənətə, ədəbiyyata və müasir elmin müxtəlif qollarına kifayət qədər maraq göstərən gənclər, uşaqlar var. Onlardan biri də Məmmədov Uğur Nihad oğludur.

Məmmədov Uğur Nihad oğlu 14 sentyabr 2011-ci ildə Bakı şəhərində anadan olub. O 2017-ci ildə Elxan Misirxanov adına 71 saylı tam orta məktəbin birinci sinfinə daxil olmuşdur. Məktəbə getdiyi ilk günlərdən fəallığı ilə yoldaşlarından seçilən bacarıqlı dostumuz həmin məktəbin 2 ci sinifində təhsil alır. Bütün fənlərdən fəal olmasına baxmayaraq, Uğur, riyaziyyat, ingilis dili və təsviri incəsənətə xüsusi maraq göstərir. Uğurun ən çox sevdiyi müəllimləri isə Gülnaz və Yasəmən müəllimədir.Onun ən böyük arzusu polis əməkdaşı olmaqdır. Asudə vaxtlarını dəyərləndirməyi bacaran Uğur, boş vaxtlarında şəkil çəkməyi və mənalı şeirlər əzbərləməyi sevir. Qeyd edək ki, Uğurun qeyri adi rəssamlıq qabiliyyəti var.

Məktəbdə müəllimlərin, evdə valideynlərinin sevimlisi olan Uğur 5 nəfərlik ailəsi ilə xoşbəxtdir.

Atası Məmmədov Nihad 1983-cü ildə Naxçıvan şəhərində anadan olub. Hazırda Dövlət Gömrük Komitəsində çalışır.

Anası Məmmədova Gülnar 1986-cı ildə anadan olub. Evdar qadındır.

Qardaşı Məmmədov Ayxan Nihad oğlu 7-ci sinif şagirdidir.

Bacısı Məmmədova Rəna isə 6-cı sinifdə təhsil alır.

Biz də jurnalımız adından Uğur balamızı və onun valideynlərini təbrik edir, ona adı kimi uğurlu bir həyat arzu edirik!



# İsgəndərli Nüşabə Coşqun qızı





"Elm bir xəzinədir, təhsil isə onun açarı". Bu sözləri Azərbaycanın dahi şairi Seyid Əzim Şirvani demişdir. Ölkəmizdə son illərdə gedən inkişaf təhsil sahəsinə də öz təsirini göstərmişdir. Bu inkişaf göstərir ki, Azərbaycan öz gələcəyini inamlı və parlaq görmək əzmindədir. Ölkənin isə əsas inkişaf qurucuları yüksək ixtisaslı kadrlardır. Savadlı kadrların yetişməsində və ən böyük məsuliyyət müəllimlərin üzərinə düşür.

Təhsil öyrənməyin, daha aydın desək bilik, bacarıq, və müxtəlif vərdişlərə yiyələnməyin asanlaşdırılmış yoludur. İndi haqqında danışacığımız Nüşabə balamız da elmin sirlərinə yiyələnmək istəyən fəal şagirdlərdən biridir.

İsgəndərli Nüşabə Coşqun qızı 30 noyabr 2010-cu ildə Sabirabad rayonunda dünyaya göz açıb. Təhsil həyatına ilk addımlarını Hacı Zeynalabdin Tağıyev adına 6 saylı tam orta məktəbdə başlayan Nüşabə 2016-cı ildə birinci sinfə getmişdir. İndi isə kiçik Nüşabə həmən məktəbin 3-cü sinfində təhsil alır. İbtidai sinif şagirdi olmasına baxmayaraq, o məntiqi, savadı və fəallığı ilə yoldaşlarından seçilir. Bütün fənlərdən əlaçı olan qəhrəmanımız, Azərbaycan dili və musiqi fənlərinə xüsusi maraq göstərir. Ona elmin sirlərini açan müəllimlərə hörmət edən balaca balamız, Nuranə müəlliməni lap çox sevir. Nüşabənin sözlərinə görə gələcəkdə həkim olub, xəstə insanların sağalması üçün əlindən gələn tibbi yardımı əsirgəməyəcək. Asudə vaxtlarında kitab oxumağı və rəsm çəkməyi çox xoşlayan Nüşabənin ailəsi 3 nəfərdən ibarətdir.

Atası İsgəndərov Ceyhun İsmayıl oğlu.

Anası Kazımlı Mətanət Müslüm qızı.

Qeyd edək ki, Nüşabə balamız ailənin yeganə övladıdır.

Redaksiyamızın rəhbərliyi və işçi heyyəti adından kiçik balamızı bir daha təbrik edir, ata və anasının hər zaman iftixar yeri olmasını diləyirik. Səsin hər zaman uca zirvələrdən gəlsin, əziz Nüşabə!

# İbrahimova Nəzrin Elnur qızı






Biz elmi-texniki tərəqqinin çox vüsət alıb dünyanı idarə etdiyi bir əsrdə yaşayırıq. Bu elə bir əsrdir ki, cəmiyyətimizin iqtisadi, mədəni, mənəvi inkişafı elm və biliklə xarakterizə olunur.

Təhsil və bilik insan həyatında aparıcı rol oynayan ən vacib amillərdəndir. Belə ki, bilik insanın güclü, qüdrətli, müdrik bir şəxsiyyət kimi yetişməsində ən mühüm vasitədir. Elm, təhsil eyni zamanda dünya və aləmi, onun əsrarəngiz çalarlarını dərk edib duymaq üçün bir vasitədir. Belə ki, bizi əhatə edən aləm elmin, təhsilin və müasir texnikanın uğurlu nəaliyyətlərinə əsaslanır.

Bilikli insan hərtərəfli olduğu üçün hər hansı bir çətin vəziyyətdən çox asanlıqla çıxa bilir. Belə insanlar ziyalılığın göstəricisi kimi güclü ünsiyyət bacarığına da yiyələnmiş olur. Belə ki, dili, ünsiyyəti güclü olan insan malik olduğu bilik və bacarığını daha rahat, başa düşüləcək tərzdə ifadə etmək qabiliyyətindədir. Budur ziyalılıq, budur fərqlilik.

İbrahimova Nəzrin Elnur qızı 28 Yanvar 2006-cı ildə Bakı şəhərində anadan olub. O, 2013-cü ildə 32 saylı Ağdam rayon məktəbinin 1-ci sinfinə daxil olmuşdur. Hal-hazırda adı çəkilən orta məktəbin 6-cı sinifində təhsil alan Nəzrin bütün fənlərdən əlaçı və fəaldır. Amma onun diqqətini ən çox cəlb edən fənlər Azərbaycan dili və riyaziyyat fənnidir. Nəzrinin tərbiyyəsi, savadı, nizam-intizamlı şagird olması onu müəllimlərin və şagirdlərin sevimlisinə çevirmişdir. Asudə vaxtlarını da dəyərləndirməyi bacaran kiçik xanım, boş vaxtlarında kitab oxumaqdan böyük zövq alır. Gələcəkdə müqəddəs və məsuliyyətli peşə olan həkimliyi seçmək istəyən Nəzrinin ailəsi 4 nəfərdən ibarətdir.

Atası İbrahimov Elnur 1979-cu il təvəllüdlüdür.

Anası Əliyeva Arifə 1980- ci ildə dünyaya gəlmişdir.

Qardaşı İbrahimov Elgün 2003-cü ildə Bakı şəhərində anadan olub, məktəblidir.

Rəhbərliyimiz və işçi heyyətimiz adından Nəzrini və ailəsini ürəkdən təbrik edirik. Yolun hər zaman işıqlı və uğurlu olsun. Vətənimizin sizin kimi savadlı gənclərə ehtiyacı var.



# Məmmədova Fərəh Cahangir qızı





İndi dünya ölkələrinə inteqrasiyanın vacib olduğu, intellekt savaşının getdiyi zamandır.

Torpaqlarımızın işğaldan azad edilməsi, millətimizin azad, firavan yaşaması üçün bütün bilik və bacarıqlara yiyələnən vətəndaşlarımıza böyük ehtiyac vardır. Çünki elmi biliklərə malik bir ölkənin gücü, qüdrəti böyük olduğu qədər sarsılmazdır.

Bilikdən güclü bir qüvvə yoxdur, biliklə silahlanan insan məğlubedilməzdir.

Dahi şairimiz N.Gəncəvi alimin rütbəsinin ən uca rütbə olduğunu belə ifadə etmişdir.

**Qüvvət elmdədir, başqa cür heç kəs**
**Heç kəsə üstünlük eyləyə bilməz!**
**Hər uca rütbədən biliniz fəqət,**
**Alimin rütbəsi ucadır əlbət!**

Məmmədova Fərəh Cahangir qızı 27 oktyabr 2005-ci ildə Bakı şəhərində anadan olmuşdur. Orta təhsilinə 2012-ci ilin sentyabrında 32 saylı Ağdam rayon məktəbindən başlayan Fərəh, hal-hazırda adı çəkilən orta məktəbin 7-ci sinifində təhsilini davam etdirir. Uşaq yaşlarından öyrənməyə can atan fərəh müəllimlərinin və valideynlərinin sevimlisidir. Fərəh ona tədris olunan bütün fənlərdən yüksək qiymətlər alır. Sinifin ən qabaqcıllarından olan fərəh dəfələrlə fəallığına və çalışqanlığına görə diplom və fəxri fərmanlar alaraq valideynlərini qürurlandırmışdır. Boş vaxtlarında rəsm çəkdiyini deyən Fərəhin gözəl əl qabiliyyətinin də olduğunu öyrəndik. Amma kiçik xanım deyir ki, bu onun hobbisi olsa da, gələcək həyatında sevimli peşəsinə çevrilə bilər. Fərəh böyüyəndə ya polis əməkdaşı ya da incəsənət xadimi olmağı arzulayır. Fərəhin ailəsi 4 nəfərdən ibarətdir.

Atası Məmmədov Cahangir Qaçay oğlu 26 Mart 1971-ci ildə Fizuli rayonunda anadan olub.

Anası Məmmədova İntizar 8 Fevral 1983-cü il təvəllüdlüdür.

Qardaşı Məmmədov Fərid Cahangir oğlu 29 Aprel 2007-ci ildə Bakı şəhərində dünyaya gəlib, hazırda məktəblidir.

Kollektivimiz adından Fərəhi təbrik edirik. Arzu və istəklərinə tez bir zaman ərzində çatasan. Hər zaman qarşına çıxacaq çətinliklərə rahatlıqla sinə gərməyi bacarasan.

# Mirzəyev Nicat Firdovsi oğlu





Hər bir qab içinə nəsə qoyduqca daralar. Ancaq elm qabı istisnadır. Beynimiz olan həmin qabı elmlə zənginləşdirdikcə şəxsiyyətmizin formalaşmasına səbəb olar. Dahi rus yazıçı Çexovun dediyinə görə,- milli vurma cədvəli olmadığı kimi, milli elm də yoxdur. Nə millidirsə, o artıq elm deyil. Elm dünyada yaşayan bütün insanların danışa biləcəyi ortaq bir dildir. Dilindən, irqindən aslı olmayaraq bütün millətlər təsdiqlənmiş faktları reallıq kimi qəbul edirlər.

Oxuduğu məktəbin qabaqcıl şagirdlərindən olan Mirzəyev Nicat Firdovsi oğlu 19 İyul 2006-cı ildə Bakı şəhərində dünyaya gəlmişdir. Nicat 2012-ci ilin sentyabr ayında 32 nömrəli məktəbin birinci sinfinə daxil olmuşdur. İndi isə balaca qəhrəmanımız həmən məktəbin 7-ci sinfində təhsilini davam etdirir. Nicat bütün fənləri böyük həvəslə mənimsəyir. Ona elmin sirlərini dərindən öyrədən bütün müəllimlərini çox sevən Nicat, fizika, biologiya, coğrafiya kimi təbiət elmlərinə xüsusi maraq göstərir.Təsadüfi deyil ki, O imtahanlarından yüksək nəticələr qazanmışdır. Dəfələrlə 1-ci 2-ci və 3-cü yerlərə layiq görülmüş, diplomla təltif edilmişdir. Nicatın sözlərinə görə boş vaxtlarında televizor izləməyi, oyun oynamağı, mahnı ifa etməsi və xüsusən də kitab oxumağı çox sevir.

Gələcəkdə iqtisadçı olub ölkəmizin sosial-iqtisadi rifahında xüsusi rol oynamaq istəyən Nicatın ailəsi 6 nəfərdən ibarətdir.

Atası Mirzəyev Firdovsi 1979-cu ildə anadan olmuşdur. Hazırda işsiz olsa da o ali təhsilli mühəndisdir.

Anası Manafova Pərvanə 1980-ci ildə dünyaya gəlib. Ali təhsilli olan Pərvanə xanım ixtisasca ibtidai sinif müəllimidir.

Qardaşı Mirzəyev Nihad, bacıları Mirzəyeva Sevinc və Mirzəyeva Aysu məktəblidirlər.

Nicata gələcək həyatında jurnalımızın rəhbərliyi və işçi heyyəti adından böyük nəaliyyətlər arzu edirik. Hər zaman valideynlərinin başını uca tutub, üzlərini güldürəsən. Uğurlar, Nicat!



# Yunisov Elşən Mehman oğlu





“Açılan hər məktəb bir həbsxananın bağlanması deməkdir”. Bu sözlər məşhur yazıçı V.Hüqoya məxsusdur. Əgər diqqətlə düşünsək doğrudan da bu sözlərin həqiqət olduğunu görərik. Müdrik insan düzgün cavabları verən yox, doğru sualları ünvanlayan şəxsdir. İnsan həyatının müxtəlif yaş mərhələləri var və vaxtında çəkilən zəhmət, qazanılan bilik həyat yolumuzu bir ömür boyu işıqlandırır. Elm elə bir libasdır ki, heç zaman köhnəlmir.

Müasir ölkəmizdə yetişən savadlı şagirdlər, təhsilli gələcək xalqımızın fəxr yeridir. Belə şagirdlərdən biri də Elşən balamızdır. Yunusov Elşən Mehman oğlu 4 May 2007-ci ildə Bakı şəhərində anadan olmuşdur. Elşən uşaq yaşlarından elmə, təhsilə böyük maraq göstərmişdir. Elşən təhsil həyatına 2013-cü ildə 32 saylı tam orta məktəbdə başlamışdır. Hal-hazırda Elşən adı çəkilən məktəbin 6-cı sinfində təhsilini davam etdirir. Kiçik dostumuzun təbiətə olan sevgisi onda biologiya fənninə maraq yaratdı. Elşənin ən çox sevdiyi müəlliməsi isə Lalə müəllimədir.Elşən gələcəkdə həkim olmaq istəyir. Sosial həyatda çox fəal olan Elşənin bir sıra uğur və nəaliyyətləri var. O karate-do Kyukushinka idman növü ilə məşğul olur. Bu idman növü üzrə Respublika ikincisi olan kiçik qəhrəmanımız bir çox turnirlərdə iştirak etmişdir. Elşən balamız həmçinin Şahmatla da məşğul olur. Bu idman növü üzrə 2-ci dərəcənin sahibidir. Boş vaxtlarını bu cür səmərəli keçirən Elşənin ailəsi 4 nəfərdən ibarətdir.

Atası Yunusov Mehman Nəsib oğlu 1973-cü ildə anadan olub, ticarətçidir. Mehman bəy ikinci qrup əlildir.

Anası Yunusova Aynurə Bahadur qızı 1980-ci ildə anadan olub, evdar xanımdır.

Qardaşı Yunusov Elman 2005-ci ildə anadan olub, 8-ci sinifdə oxuyur. Elman dərslərində əlaçıdır. Qeyd edək ki, Elman da idmanla aktiv məşğul olur və dəfələrlə müxtəlif turnirlərinin qalibidir.

Biz də öz jurnalımızın kollektivi adından Elşəni təbrik edir, ona gələcək həyatında uğurlar diləyirik. Qoy uğur daim səninlə olsun. Valideynlərinin fəxri olasan, Elşən!

# Səfərov Vüsal Yelmar



"Elm bizim hissi təcrübəmizin xaotik müxtəlifliyinin hər hansısa vahid təfəkkür sisteminə uyğunlaşdırılmasıdır". Bu sözlər dünya şöhrətli fizik, A. Eynşteynə məxsusdur. Onun fikrincə elm bütün təbii proseslərin bir fikirdə cəmlənmiş halıdır. Bir ölkənin mədəniyyətinin, incəsənətinin formalaşması üçün ilk öncə təhsil sahəsi inkişaf etməlidir. Unutmaq olmaz ki, hər bir sənətin, peşənin başlanğıcı təhsildən keçir. Ulu öndər Heydər Əliyevin təhsilimizə verdiyi töfhələr onun gənclərin inkişafına göstərdiyi qayğının sübutudur.

Səfərov Vüsal Yelmar oğlu 1 May 2007-ci ildə Bakı şəhərində anadan olmuşdu. Vüsal təhsil həyatına 2013-cü ildə Ağdam rayonu 32 saylı tam orta məktəbdə başlamışdır. Hələ ibtidai sinifdə oxuyarkən savadı, tərbiyəsi, nizam-intizamı ilə yaşıdlarından seçilən Vüsal, hal-hazırda həmən məktəbin 6-cı sinfində təhsil alır. Vüsalın ən çox sevdiyi fənn Azərbaycan dili və ədəbiyyat fənnidir. Müəllimələrinin içində lap çox sevdiyi ona bu fənləri sevdirən Abdullayeva Firəngiz müəllimədir. Vüsalın ən böyük arzusu gələcəkdə hüquq mühafizə əməkdaşı olub, xalqa layiqli xidmət etməkdir. Boş vaxtlarında idman etməyi sevən dostumuzun bir sıra uğurları da var. O, idmanda 2 və 3-cü yerlərə layiq görülüb, sarı və narıncı kəmər sahibidir. Həmçinin əsl idmançıya uyğun xatakteri, nizam-intizamı və nümunəvi şagird kimi seçilməyi məktəb rəhbərliyi tərəfindən diplom və sertifkatlarla təltif edilməyinə səbəb olmuşdur. Vüsalın ailəsi 4 nəfərdən ibarətdi.

Atası Səfərov Yelmar 22 Fevral 1971-ci ildə anadan olmuşdur. Sürücü kimi fəaliyyət göstərir. Qeyd edək ki, Yelmar bəy Qarabağ qazisidir.

Anası Hüseynova Ülviyyə 18 May 1981-ci ildə anadan olub, hal-hazırda evdar qadındır.

Bacısı Səfərova Könül Yelmar qızı 2002-ci ildə anadan olub, hazırda Bakı Humanitar Kollecində tələbədir.

Həmçinin biz də kollektivimiz adından Vüsal balamızı təbrik edirik və həyatda qarşısına çıxacaq problemləri dəf etməyə güc arzu edirik. Biz fəxr edirik ki, ölkəmizdə Vüsal kimi övladlar yetişir.



# Mirzəyeva Sevinc Firdovsi qızı



**Bizdə təhsil çox inkişaf edibdir. Azərbaycanda demək olar ki, təhsil almayan şəxs yoxdur.**

***H.Əliyev.***

Qədimdə insanlar elmi kamilliyə yetmək naminə öyrəndikləri halda, bu gün onu dünyanı fəth etmək naminə öyrənirlər. Zaman keçdikcə məqsədlər dəyişsə də elm dəqiqdir. Hazırki nəzəriyyədən daha mükəmməli sübut olunmayana kimi dəyişməzdir. Savad elə bir silahdır ki, pis niyyətli insanların əlinə keçərsə dünyanı dağıdar, xoş niyyətli insanın əlində olarsa bütün bəşəriyyəti xilas edə bilər.

Yazımızın qəhrəmanı Mirzəyeva Sevinc Firdovsi qızı 29 Aprel 2005-ci ildə Bakı şəhərində anadan olmuşdur. Hələ kiçik yaşlarından təhsilə olan marağı onu yaşıdlarından fərqləndirirdi. Sevinc 2011-ci ildə Ağdam rayon 32 saylı tam orta məktəbin birinci sinfinə getmiş, bununla da Sevinc uğurlu təhsil həyatına inamlı addımlarını atmışdır.Hələ erkən zamanlarda fəallığı və nizam-intizamı ilə bir çox uşaqdan seçilən Sevinc hazırda 8-ci sinif şagirdidir. Onun ən çox sevdiyi fənlər fizika, riyaziyyat, ingilis dili və kimyadır. Sevinc bütün müəllimlərini sevsə də, Almaz, Könül, Aygün və Sədaqət adlı müəllimələrini daha çox istəyir. Dərslərində fəal olan xanım qəhrəmanımız tədris aldığı kursda da 1 və 2-ci yerlərlə mükafatlandırılmışdır. Qeyd edək ki, o həmçinin əlaçı olduğuna görə "yaxşı şagird" diplomuna da layiq görülüb.

Boş vaxtalarında müsiqi dinləməkdən, kitab oxumaqdan, rəsm çəkməkdən xüsusi bir zövq alır. Valideynlərinin baş tacı olan Sevincin ailəsi 6 nəfərdən ibarətdir.

Atası Mirzəyev Firdovsi 1979-cu ildə doğulub. Ali təhsilli mühəndisdir.

Anası Manafova Pərvanə 1980-ci il təvəllüdlüdür. Müəllim işləyir.

Qardaşları Nicat, Nihad və bacısı Aysu məktəblidirlər.

Sevincin ən böyük arzusu igilis-Azərbaycan dillərindən tərcüməçi olmaqdır.

Biz də həmçinin kollektivimiz adından Sevinci də təbrik edir, ona sevdiyi peşəyə dərindən yiyələnməyi diləyirik.

# Qasımlı Qasım Elnur oğlu





İnsan həyatının hərtərəfli tərəqqisinə hava su kimi lazım olan elmə islami ədəbiyyatda nə qədər önəm verildiyi islami təfəkkürlə az-çox tanışlığı olanlara məlumdur. İstər səmavi kitab olan Quranda , istərsə də başqa islami mənbələrdə bəşər övladına elmin dəyəri və insan həyatındakı əvəzedilməz rolu barədə daim xəbərdarlıqlar edilmiş, elm öyrənənlərə, alimlərə böyük dəyər verilmiş, hörmət edilmişdir. Cahillər isə həmişə məzəmmət edilmişdir.

Qasımlı Qasım Elnur oğlu 1 Yanvar 2011-ci ildə Sabirabad rayonunda dünyaya gəlmişdir. O təhsil həyatına 2017-ci ildə, Hacı Zeynalabdin Tağıyev adına 6 saylı tam orta məktəbin 1-ci sinfinə ilk addımlarını ataraq başlamışdır. İndi isə Qasım balamız adıçəkilən məktəbin 2-ci sinfində oxuyur. 8 yaşı olmasına baxmayaraq o, dərslərində çox fəal və olduqca çalışqan şagirddir. O anlayır ki, təhsil insan həyatında çox önəmlidir. Bütün fənləri həvəslə oxuyan balaca Qasımın ən sevdiyi fənn isə elmlərin açarı olan riyaziyyatdır. Bu fənni ona sevdirən Abdullayeva Validə müəlliməni isə lap çox sevir. Azyaşlı olsa da qəhrəmanımız asudə vaxtlarında kitab oxuyur, vaxtını səmərəli keçirir. Qasım gələcək həyatında vicdanlı polis əməkdaşı olub, xalqına, millətinə xidmət etmək istəyir.

Valideynlərinin və müəllimlərinin sevimlisi olan Qasımın ailəsi 5 nəfərdən ibarətdir.

Atası Qasımov Elnur 1985-ci il təvəllüdlüdür. Sürücü işləyir.

Anası Qasımova Afət 1986-cı ildə dünyaya gəlib. Afət xanım müəllimədir.

Bacıları Qasımova Aybəniz 2009, Qasımova Elnurə isə 2017-ci ildə doğulmuşdurlar.

Qasım kimi savadlı şagirdlərin sayının hər ötən gün daha da artması sevindirici bir haldır. Biz də redaksiyamız adından Qasımı və valideynlərini səmimi qəlbdən təbrik edirik. Yolun açıq və daim işıqlı olsun.



# Quliyeva Banu Vidadi qızı





**Banu çiçəyim**

Doğuldun adına banu deyirlər,
Şuşalı olduğun, bilsin dedilər.
Qarag gözlüm, mənim gözəl-göyçəyim
Çox şirinsən,mənim Banu çiçəyim

Kiçiksən hamıya hökm eyləyirsən,
Kimsə əzizlərsə çox sevinirsən.
Açılmayıb ləçəklərin, göyçəyim
Hələ tumurcuqsan, Banu çiçəyim.

Böyümüsən, şirin bir qız olmusan,
Hamının sevimlisi, babanın bir dənəsi.
Sən bizim birinci qız nəvəmizsən,
Şirindir ağıllı Banu çiçəyim.

Savadlı insan bir dəryadır, suyundan nə qədər istifadə olunsa bitməz, tükənməz. Elm zamanla dəyişə və yenilənə bilər. İstənilən bir şəxs ən məşhur alimin fikrini belə yoxlamaq səlahiyyətinə malikdir. Lakin, yeni fikir ortaya qoyulana kimi reallığa ən çox yaxın olan fikir həqiqət kimi qəbul olunur. Müxtəlif dövrlərdə dünyanın müxtəlif yerlərində savadlı və xüsusi istedadlı insanlar yetişir. Ölkəmizdə də savadlı gənclər az deyil. Haqqında danışacağımız Banu balamız da belə uşaqlardandır.

Quliyeva Banu Vidadi qızı 3 oktyabr 2008-ci ildə Mingəçevir şəhərində anadan olmuşdur. 2014-cü ildə 1 saylı Şuşa orta məktəbinin birinci sinfinə daxil olan Banu hazırda adı çəkilən məktəbin 4-cü sinfində təhsil alır. Uşaq yaşlarından həmyaşlarından fəallığı, ətrafında baş verən hadisələrə göstərdiyi reaksiyalarla seçilən balamız, müəllim obyektiv və valideynlərinin sevimlisinə çevrilmişdir. Bütün fənlərdən əlaçı olsa da onun ən çox sevdiyi fənn Azərbaycan dili, ən sevdiyi müəlliməsi isə Pərvanə müəllimədir. Dərslərindəki fəallığına və xüsusi savadına görə o, “İlin ən yaxşı şagirdi” fəxri fərmanına layiq görülmüşdür. Banu məktəbdən kənarda da aktivdir. O, boş vaxtlarında forte-pianoda ifa edir. Gözəl Banunun ən böyük arzusu müəllim pedaqoq olub, özü kimi savadlı uşaqlar yetişdirməkdir. Banunun ailəsi 4 nəfərdən ibarətdir.

Atası Quliyev Vidadi İlyar oğlu sürücüdür
Anası Quliyeva Şahnaz Zülfiqar qızı
Qardaşı Quliyev İlyar Vidadi oğlu şagirddir.

Redaksiyamız adından biz də Banunu və onun valideynlərini təbrik edirik. Ona qarşıdak, illərdə uğur və nəaliyyətlər diləyirik.

# HÜSEYNZADƏ AHU



Bilikli insanlara cəmiyyətin hər yerində hörmət olur. Peşəkarlığın, biliyin, savadın və intellektin əsası məktəblərdə qoyulur. Məktəbdə verilən təhsil insanın həyatında həlledici rol oynayır. Və hər bir insan üçün onun gələcəyi, onun taleyi məktəb illərində dərslərə verdiyi diqqətlə birbaşa bağlıdır. İnkişaf ruhda və düşüncədə olmalıdır. Azərbaycan gələcəyini daha etibarlı və inamlı görmək əzmindədir. Prezidentimiz Cənab İ.Əliyev təhsilin hər şeydən önəmli olduğunu dəfələrlə vurğulayıb. Ölkəmizdə savadlı müəllim toplusu var. Onların yetişdirdikləri minlərlə şagird yüksək göstəricilərlə ali məktəblərə qəbul olurlar. Bu bir örnəkdir, arxasınca gələn şagird ordusu bir-birinin həvəsinə elmin dərinliklərinə baş vurmaq niyyətindədirlər. Elə gələcəyə inamla baxan şagirdlərimizdən biri də Hüseynzadə Ahudur.

Hüseynzadə Ahu Tural qızı 12 iyul 2011-ci ildə Biləsuvar rayonunda doğulub və 2017-ci ildə məktəb həyatına başlayıb. O. Babayev adına Aşağı Cürəli kənd tam orta məktəbinin 2-ci b sinif şagirdidir. Sevdiyi fənn riyaziyyat, müəlliməsi isə X. Ağayevadır. Müəllimin insan həyatında böyük rolunun olduğunu hələ balaca yaşında hiss edən Ahu bala böyuyəndə müəllim olmaq istəyir. Yəqinki, bu hiss ona atasından keçib. Əlaçı olmaqla yanaşı gözəl rəsm çəkmək bacarığı olan Ahu çox məsuliyyətli şagirddir. Sınaq imtahanlarında iştirak etdiyi zamanlarda hər dəfə yüksək nəticə əldə edir. Valideyinlərinin fəxri, müəllimlərinin sevimlisi, dostlarının ən yaxın sirdaşı olan Ahu məktəbə, təhsilə, elmə cox ciddi yanaşır.

Ailəsi 5 nəfərdən ibarətdir. Atası Hüseynov Tural Valeh oğlu hal-hazirda Aşağı Cürəli kənd tam orta məktəbinin müəllimidir. Anası Hüseynova Gülər İbrahim qızı evdar xanımdır. Ahunun bir bacısı və , bir qardaşı var.

Jurnalımızın adından Ahu balaya can sağlığı, dərslərində müvəffəqiyyətlər arzulayırıq!



# AYXAN MAHMUDOV






Bilikli insanla münasibət qurmaq, ünsiyyət saxlamaq insana o qədər zövq verir ki, istəyirsən daim onunla söhbət edəsən. Çünki bilikli insanla söhbət edəndə insan ruhən dincəlir, müxtəlif mövzularda dolğun informasiyalarla məlumatlanır. Qarşındakı müsahibin nə qədər sakit, danışmağı sevməyən biri olsa da bir sual verən kimi istər-istəməz səninlə danışacaq, verdiyin sualları cavablandıracaq. Elmə, biliyə yiyələnmək hər kəsə nəsib olmur. Bəzən insan ona verilən həyatdan necə faydalanmaq əvəzinə, boş-boşuna ömrünü başa vurur. Bəzən isə əksinə, bütün gücünü elmə, savada yönəldir. Özünün prinsipləri olur. Çalışır ki, vətəninə, xalqına bir köməyi, elmlə faydası olsun. Bunun üçün təhsilin, məktəbin, bizə dərs deyən müəllimlərin həyatında böyük rolu var. Hər kəs öz həyat yolunda məktəbin, müəllimin nə kimi rol oynadığını bilib və qiymətləndirərsə ancaq qazanmış olar.

Ayxan da elmə, təhsilə önəm verən çalışqan şagirdlərdən biridir.

Mahmudov Ayxan Şirxan oğlu 2006-cı il oktyabrın 1-də Bakı şəhərində anadan olub. 7a sinif şagirdi olan Ayxan 2012-ci ildə təhsilə başlayıb. Hazırda Laçın rayonu 6 nömrəli tam otra məktəbinin şagirdidir. Təhsil aldığı illərdə bir neçə dəfə fəxri fərmanlara layiq görülən Ayxan "Təhsil yenilikləri" jurnalının fəal şagirdi və daim oxucusudur. Ayxan deyir ki, mən müəllimlərimi və sinif yoldaşlarımı çox sevirəm. Xoşladığı fənləri və bu dərsləri keçən müəllimlərini də bizə sadaladı. Ayxan deyir ki, adam öz ana dilini sevməlidi.

Azərbaycan dilini tədris edən isə Azər müəllimdir, riyaziyyat isə bütün elmlərin şahıdır. Bu fənni ona İlhamə müəllimə tədris edir. Ayxan bilir ki, insan nə qədər çox dil bilsə, bir o qədər yaxşı olar. Ingilis dilini isə Rəna müəllimə tədris edir. O söylədi ki, bütün müəllimlərinə Ayxanın adından jurnalımız vasitəsi ilə təşəkkür edək. Çünki, müəllimlərin əziyyəti olmasa insan heç bir məqama çata bilməz.

Ayxan boş vaxtı olanda dostları ilə futbol oynayır. Ailədə 4 nəfərdirlər. Atası Mahmudov Şirxan Saleh oğlu sürücü işləyir, anası Mahmudova Vüsalə Nadir qızı evdar xanımdır. Bir bacısı var. Bacısı haqqında çox fərəhlə danışdı.

Bacısının adı İlahədir. İlahə 3-cü sinifdə oxuyur. O deyir ki, "Bacım əlaçıdır və istedadlıdır."

Ayxan hələ çox oxuyacaq. O vaxta kimi ki, valideyinlərinin, müəllimlərinin ona tövsiyyə etdikləri məqama çatana kimi.

Valideynlərinin sevimlisi Ayxana təhsilində və məqsədlərində uğurlar diləyirik!

# HÜSEYNOV BƏHMAN



Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyətdə layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığın möhkəmləndirilməsi üçün dövlət səviyyəsində də bütün zəruri tədbirlər həyata keçirilir. Ölkəmizdə məqsədyönlü şəkildə işlərin nəticəsi olaraq bu gün müasir Azərbaycan gəncliyi yeni inkişaf mərhələsinə qədəm qoyub.

Prezident İlham Əliyevin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun, dövlət idarəçiliyi sistemində mühüm işlər görülür. O cümlədən orta məktəblərdə və orta incəsənət məktəblərində də gənclərimizə bir çox imkanlar yaradılır.

Demək olar ki, ölkəmizdə məktəblərin və məktəblilərin təhsil vəziyyəti yüksək mərhələdədir. Hər il yüzlərlə məzun yüksək bal toplayaraq tələbə adına layiq görülür. Belə arzusu olan bir şagirdimizi də sizinlə tanış etmək istəyirik.

Hüseynov Bəhman Beyrək oğlu 24 yanvar 2004-cü ildə Rusiyada anadan olub. 2012-ci ildə elə öz vətənində məktəbə yollanan Bəhman hazırda 99 nömrəli məktəbin 7-ç sinif şagirdidir. İncəsənətə olan marağından dolayı gələcəkdə rəssam dizayner olmaq istəyir. Bəhman bala. Doğmalarının və valideynlərinin sevimlisidir. Asudə vaxtlarında dərslərini təkrarlayır və rəsmlər çəkir. Gözəl əl qabiliyyəti var. Çalışır ki, bu bacarığını daha da təkmilləşdirsin. Ailədə 4 nəfərdilər. atası, anası, və bacısı.

Atası Hüseynov Beyrək şəxsi bizneslə məşğuldur. Anası Hüseynova Yeganə isə menecerdir. Bacısı Hüseynova Elvidadır.

Dərslərində çalışqan, bacarıqlı Bəhmana müvəffəqiyyətlər diləyirik! Uğurların bol olsun!



# SAMİR XUDİYEV





Heç kəsə sirr deyil ki, gənclik bir millətin yaşaması, inkişafı üçün təməl daşıdır. Bir millətin mövcud olması üçün onun sağlam gəncliyinin olması vacib şərtdir. Çünki hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevirilməsindən çox asılıdır.

Bu gün gənc nəslin düzgün yetişdirilməsi ölkə siyasətində önəmli yer tutur. Hazırda ölkəmizdə hər sahədə yüksək səviyyədə iş gedir. O cümlədən də idman sahəsində gənclərimizə bir çox şərait yaradılıb. Bu baxımdan gənclərimizin idmana həvəsi ildən-ilə artıb.

İdmanda böyük əhəmiyyəti olan futbola gənclərimizin həvəsi daha çoxdur. Belə gənclərimizdən biri də Samirdir.

Samir Xudiyev Seymur oğlu 30-avqust 2005-ci ildə, Fizuli rayonunun Horadiz qəsəbəsində dünyaya gəlib. 2011-ci ildə təhsilə başlayan Samir hazırda 29 saylı Laçın rayon tam orta məktəbinin 8-ci sinif şagirdidi. Samir ona dərs deyən müəllimlərə böyük hörməti olduğunu, fizika fənnini tədris edən Samirə müəlliməni isə daha çox sevdiyini bildirdi. Samir müəllimlərin rəğbətini məktəbə gələn ilk gündən qazanıb. Texnikanın inkişaf etdiyi indiki dövrdə bu sahəyə olan tələb və marağdan dolayı yeni texnoloji ixtisas və peşələr formalaşmaqdadır ki, müasir gənclər bu sahəyə daha çox maraq göstərir.

Elə Samir də gələcəkdə proqramist olmaq arzusundadır.

Uğur və nəaliyyətləri haqqında soruşanda Samir qeyd etdi ki, ölkə üzrə məntiq yarışmasında 6-cı yerə çıxıb. O çalışır ki, məktəbdə təhsil aldığı illərdə ən qabaqcıl şagirdlərdən olsun. Samir idmanla da məşğul olur. O, futbol yarışlarına çıxır. İstəyir ki, gələcəkdə yaxşı futbolçu olsun. Boş vaxtlarında bədii əsərlər oxumaqla yanaşı maraqlı filmlərə baxır və dostları ilə futbol oynayır.

Ailəsi 5 nəfərdən ibarətdir.

Atası Xudiyev Seymur Turab oğlu, anası Vəliyeva Tahibə Qafqaz qızı. Turab adlı qardaşı, Aydan adlı bacısı var.

Samirə dərslərində və həyatında uğurlar diləyir, hər arzusunun çin olmasını arzulayırıq.

# MİRZƏYEV İLKİM





Hər kəs gələcəkdə hər hansısa bir vəzifədə işləmək istər. Təbii ki, bunun üçün uşaq vaxtı oxumaq lazımdır. Dünyada uğur qazanan əksər insanların nailiyyətlərinin arxasında zamandan səmərəli istifadə dayanır. Qədim Roma filosofu Seneka da bunu deyirdi "Xoşbəxtlik uğura, uğur isə zamandan səmərəli istifadəyə bağlıdır" Məktəbə getdiyimiz illər ərzində çalışqan, ağıllı, bacarıqlı olmalıyıq, dərslərimizə məsuliyyətlə yanaşmalıyıq. Evə gəldiyimizdə isə vaxt bölgüsünü doğru ayırmalıyıq.

Zamanı dayandırmaq mümkün olması da amma onu idarə etmək hər kəsin öz əlindədir. Siz də zamandan düzgün istifadə edərək bacarıq və uğurlarınızın sayını asanlıqla artıra bilərsiz. Zamanını idarə etməyi bacarmaq istəyən insanın gələcək üçün bir məqsədi olmalıdır. Vaxtdan səmərəli istifadə etmək üçün həyatınızı planlı şəkildə qurmalısınız. Başda özünüzü robot kimi düşünə bilərsiniz, lakin sonra belə bir nizamlı həyat tərzinin faydalı olduğunu hiss edəcəksiniz. Jurnalımızın da əsas qayələrindən biri məhz onların simasında bunu görsətməkdir.

Ölkəmizin məqsədyönlü, bacarıqlı şagirdlərindən biri də, İlkimdir. İlkim zamandan doğru istifadə edən, həyat tərzini planlı şəkildə quran, ağıllı şagirddir.

İlkim Mirzəyev İbrahim oğlu 23 sentyabr 2010-cu il tarixində Nefçala rayonunda dünyaya gəlib. Hazırda Səbail rayonu 51 saylı tam orta məktəbin 3-cü sinfində oxuyur. Orda təhsilinə 2016-cı ildən başlayan İlkim bütün fənləri sevir, Sevil müəllimısinə isə daha çox rəğbət bəsləyir. Dərs alaçısı olan İlkim gələcəkdə peşəkar jurnalist olmaq istəyir. Valideynləri onunla fəxr edirlər. Ümid edirlər ki, övladları gələcəkdə ali dərəcələrə yüksələcək, əlbəttə ki bu İlkimin təhsilə, elmə indidən göstərdiyi maraqdan bəlli olur. Hələ yenicə elmin qucağına atılan balaca İlkim boş vaxtlarında özünü rənglər dünyasına atıb, rəsm də çəkir. Deyir ki, gözəl rəsm çəkmək qabliyyəti var.

Atasi Mirzəyev İbrahim Bayraq meydanında mühafizəçi işləyir. Anası Mirzəyeva Susana işləmir, evdar ana övladlarının tərbiyyəsi ilə məşgul olur. Qardaşları Mirzəzadə Kənan, Mirzəyev Murad məktəblidir.

Redaksiyamızın adından İlkimə pillələrini təzəcə qalxmağa başladığı təhsilində və həyatda uğurlar arzulayırıq!



# XANIM İMANOVA





Elm obyektiv əsaslanmış biliklərin əldə edilməsinə, dəqiqləşdirilməsinə və yayılmasına yönəlmiş insan fəaliyyətinin bir növüdür. Bu fəaliyyətə asasən elmi faktorların toplanması, onların daima yenilənməsi, sistemləşdirilməsi aiddir. Elm təkcə oxumaqla kifayətlənmir, bunun üçün dünyagörüşlü olmağın da böyük əhəmiyyəti var. Elm həmçinin təbiət, cəmiyyət və təfəkkürün inkişaf qanunları haqqında biliklər sistemidir.

Vətəni sevmək, vətənə xidmət etmək hər bir vətəndaşın borcudur. Əgər yaşadığın ölkəni dünyada layiqincə tanıtmaq istəyirsənsə, deməli, bunun üçün elmli və vicdanlı olmalısan. Buna lazım olan isə istedaddır. İstedadlı olmaq üçün təhsil aldığın zaman necə savad almağın önəmlidir.

İmanova Xanım Zamiq qizi. 2006-cı il sentyabrın 21 də Fizuli rayonunda dünyaya göz açmışdır. 2012-ildə məktəbə yollanan Xanım hazırda 33 sayli Agdam tam orta məktəbin 7 b sinif şagirdidir. Dərslərində nəaliyyətləri olan Xanım da fəal olmağa çalışır. O bilikdə göstərdiyi bacarıq nəticəsində Diplom və Fəxri fərmanlarla təltif olunmuşdur. Bütun fənlərə marağı olan Xanımın adını xüsusi çəkdiyi müəllimləri də var. Adlarını səmimiyyətlə sadaladığı Ülviyyə, Ətrabə, Marif, Rəna, Sevda, Şahnaz müəllimin Xanımın nailiyyətlərində xüsusi rolu var. Hələ xanımın xüsusi istedadları da var. İncəsənətə marağı olan bu qız gözəl saz çalır, rəqs edir, və mahnı da oxumağı bacarır. Ailəsinin sevimlisi olan Xanımı valideyinləri onunla fəxr edirlər. Xatırladaq ki, hər iki valideyni müəllim olan Xanımın bacıları ali məktəbdə təhsil alırlar. Bu ziyalı ailənin davamçılarından olan Xanım da çalışır ki, valideynlərinin və bacılarının yolunu davam etsin, ziyalı olsun.

Atası İmanov Zamiq Əleysan oğlu və anası İmanova İlhamə Ələkbər qızı müəllim vəzifəsində çalışırlar.

Bacısı İmanova Səma İncəsənət, Aygün İmanova isə Neft Akademiyasi Universitetində təhsil alırlar. Evin sonbeşiyi olan bir qardaşı var.

Biz də özümüzə borc bilib Xanıma təhsildə və gələcək həyatında bol-bol uğur və nəaliyyətlər arzulayırıq. Uğurlar sənə Xanım!

# MİRZƏYEVA ŞƏBNƏM



Elm, təhsil, bilik və bacarıq. Hər üçü birlikdə vəhdət təşkil edir. Bəzən elə məqam olur ki, insan öz savadı ilə yanaşı bacarıqları ilə də müəyyən bir məqama çata bilir. Təhsil, savad almaqla yanaşı hansısa bir bacarığa malik olan insanlar ölkəsinə şan-şöhrət, qürurverici qalibiyyətlər ilə yüksək ad qazandırır. Bu nəaliyyətlərin arxasında əksər vaxtlarda ailədə aldığın tərbiyədən başqa təhsil aldığın tədris mərkəzinin rolu böyük olur. Təhsil aldığı Zəngilan rayon 32 nömrəli tam orta məktəbin şagirdi Mirzəyeva Şəbnəm də məktəbi və müəllimləri ilə qürur duyduğunu söylədi. Bir neçə bacarığı ilə fərqlənən bu qızı gəlin sizə də tanıdaq.

Şəbnəm Mirzəyeva Həsən qızı 10 Yanvar 2005-ci ildə Şəki şəhərində anadan olub. Özləri əslən Laçın rayonundan olsalar da indi Bakı şəhərində məskunlaşıblar. 5 nəfərdən ibarət bu alilədə iki qız, bir oğlan övladı böyüyür. 2011-ci ildə məktəbə yollanan Şəbnəm indi Zəngilan rayonu 32 saylı tam orta məktəbin 8-ci sinfində təhsil alır. Dərslərinə məhsuliyyətlə yanaşan Şəbnəm hər zaman əla qiymətlər almaq istəyir. Məktəbdə keçirilən şeir müsabiqəsində 1-ci yerə layiq görülərək fərqlənib.

Şəbnəm gələcəkdə hüquqşünas olmaq istəyir. O qeyd etdi ki, bütün müəllimlərinin onun üzərində böyük zəhməti var. Ancaq Nazilə, Məhsəti, Yeganə, və Kifayət müəllimənin və ilk dəfə ona qələm tutmağı öyrədən Yeganə Həmzəyevanın adını isə xüsusilə vurğuladı. Şəbnəm idmanla da məşğul olur. O, gimnastikaya və karateyə maraq göstərir. Boş vaxtlarında bədii və elmi kitablar oxuyur.

Atası Mirzəyev Həsən 1972-ci ildə Laçın rayonunda anadan olmuş, qarmon müəllimidir.

Anası 1981-ci ildə Günəş Şuşa şəhərində anadan olub evdar xanımdır. Bacısı Mirzəyeva Aysun 6-cı sinifdə oxuyur. Qardaşı Mirzəli Rəmzi 2011-ci il avqustun 31 də dünyaya gəlib, 2-ci sinifdə oxuyur.

Redaksiyamız adından Şəbnəmə dərslərində uğurlar diləyirik. Arzu edirik ki, gələcəyin ən yaxşı hüquqşünası olsun.



# AYSUN MİRZƏYEVA






Gözəllik duyğusu varlığın, mövcud həqiqətin idrakıdır. İnsan bütün varlığı ilə gözəlliyə can atır və deməli, həqiqi gözəlliyi duymaq, dərk etmək üçün elm öyrənmək vacibdir. Elm həqiqəti öyrədir, həyatın, təbiətin sirlərini kəşf edir. Elmlə məşğul olmaq isə, gözəlliyin sorağında gəzmək və onu kəşf etmək deməkdir.

Elm həm də dünyagörüşdür, insanı yüksəldən mənəvi ucalıqdır. İnsan yalnız elmi, bacarığı ilə başqalarından fərqlənib nisbətən üstün mövqeyə malik ola bilər.

Mirzəyeva Aysun Həsən qızı da elmin ətəyindən möhkəm yapışıb, onunla həyatını quranlardandır.

O, 2006-cı ilin dekabrın 28-də Bakıda, Sabunçu rayonunda anadan olub. 2013-cü ildə məktəbə qədəm qoyub. İlk dəfə qələm tutmağı, "Ana" kəlməsini yazmağı İlahə müəllimədən öyrənib. Gələcəkdə jurnalist olmaq istəyən Aysun hazırda 6-cı sinifdə oxuyur. Bütün fənləri sevir. Deyir ki , Azərbaycan dilindən dərs deyən Taleh müəllimi, Coğrafiya müəlliməsi Nüranə, Riyaziyyat fənnini daha məntiqlə öyrədən Mətanət müəlliməsini çox sevir. Dərslərindən orta qiymətlər alan Aysun şeir müsabiqələrində birinci yerə layiq görülüb. Onun gözəl seir demək qabliyyəti var. Ümumiyyətlə, Aysunun bir neçə qabliyyətləri var. O, idmanın karate növü ilə məşğul olur.

2018-ci ildə Bakı Çempionatı yarışmasında özündən 10 kq ağır çəki ilə yarışa çıxıb və rəqibinə qalib gəldiyi üçün Gürcüstan Respublikasında yarışlara dəvət alıb. Aysun qeyd etdi ki, Bakı ətrafı rayonlarda yarışlara çıxdığı zamanlarda yüksək məharətlə rəqibinə qalib gəlməsində üzərində ona karatenin sirlərini öyrədən Fizul müəllimin əməyi böyükdür.

Ailələrində Aysundan başqa bir bacısı və bir qardaşı var.

Mirzəyev Həsən Cahangir oğlu 1972-ci il sentyabrın 1-də Laçın rayonunda anadan olmuşdur. Hal- hazırda qarmon müəllimidir. Anası Mirzəyeva Günəş Pirqulu qızı 1981-ci il aprelin 29-da Şuşa rayonunda doğulmuşdur. Hazırda isə işləmir, evdar xanımdır. Qardaşı Mirzəli Rəmzi 2011-ci Bakı şəhərində dünyaya göz açmışlar. Rəmzi 2-ci sinif, Aysun isə 6-cı sinif şagirdidir.

Biz də öz adımızdan gələcəkdə jurnalist olmağa çalışan idmançı balamız Aysuna dərslərində və idman yarışlarında uğurlar diləyirik!

# İXTİYARLI MƏHƏMMƏD





Elmsiz , təhsilsiz bir insan yolunu azmış kor bir səyyaha bənzər ki, kiçik bir çuxur onu məhv edər.

Elm və bilik insan həyatını mənalandıran, onu zənginləşdirən işıqlı bir yoldur. Odur ki, həyat və güzəranımızı daha mənalı etmək, səmərəli yaşamaq üçün daha çox təhsilə, savada yiyələnməliyik.

İxtiyarlı Məhəmməd Qaraj oğlu 2012-ci il dekabrın 15-də Bakı şəhərində dünyaya gəlmişdir. 2018-ci ildə Laçın rayonunun 29 nömrəli tam orta məktəbin 1-ci sinfinə yollanmışdır. Hələ çox balaca olan bu oğlan ola bilər ki, gələcəkdə ən tanınmış bir şəxsiyyət olsun. Anası deyir ki, Məhəmməd riyaziyyat fənnini çox sevir. Elə bu məqamda Pifaqorun dediyi tərifi xatırladım. “Bir-biri ilə qarşılaşan ədədlər, fiqurlar və onların kombinasiyası bütün riyazi ideyaların mənbəyidir”. Riyaziyyatı qonşuya baxmaqla öyrənmək olmaz. O bir istedad olaraq insanla bərabər doğulmalı və insan bunu mütləq biruza verməlidir. Riyaziyyata həvəsinin olmağını ilk müəlliməsi Nüranə müəllimə Məhəmməd məktəbə gələn ilk günlərdə hiss eləmişdi. Məhəmməd çox zəkalı, ağıllı bir uşaqdır. Əslən Zəngilanlı olan bu balaca böyüyəndə qəhrəman polis olmaq istəyir. Istəyir ki, torpaqlar alınsın. Heç vaxt görmədiyi, haqqında çox eşitdiyi ata yurdu Zəngilanı, ana yurdu olan Laçını görsün. Orda əsirlikdə olan Şəhidlər Xiyabanını ziyarət etsin. Axı Məhəmməd Zəngilan rayonunun ilk Şəhidi, Milli Qəhrəman Firdofsi Məmmədovun nəslindəndir. Bəlkə Məhəmməd elə bilir ki polis olmaq “dünyaya meydan oxumaq” deməkdir. Bəlkə də elə bilir ki polislər daha güclü, daha qüvvətli olur. Axı uşaqların “Nağıllar” dünyası var.

Məhəmməd Nüranə müəllimәni çox istəyir. Çünki ilk dəfə “Ana” kəlməsini Nürанə müəllimədən öyrənib. Hələ o ilk müəllimәsindən elmin, biliyin çox sirlərini öyrənəcək.

Məhəmməd evin sonbeşiyidir. Böyük qardaşı Murad Rusiya Dövlət Aqrar Universitetinin tələbəsi, ortancıl qardaşı Rəsul isə hərbi xidmətdədir.

Məhəmmədgilin ailəsi 5 nəfərdən ibarətdir. Atası İxtiyarlı Qaraj, anası İxtiyarlı Gülnarə, qardaşları İxtiyarlı Murad və İxtiyarlı Rəsuldur

Jurnalımızın adından Məhəmmədə can sağlığı, dərslərində uğurlar arzu edirik.



# NƏSİBƏ MƏMMƏDHƏSƏNOVA



Sivilizasiyamızın gələcəyi elmin getdikcə yayılması və dərinləşməsi ilə bağlıdır.

Elm obyektiv, sistemli və əsaslandırılmış biliklərin əldə edilməsinə, dəqiqləşdirilməsinə, və yayılmasına yönəlmiş insan fəaliyyəti növüdür. Bu fəaliyyətin əsasını elmi faktların toplanması, onların daima yenilənməsi və sistemləşdirilməsi, tənqidi analizi və bu əsasda elmi biliklərin toplanması təşkil edir.

Elm təkcə müşahidə edilən təbiət və içtimai halları təsvir etmir, həm də onların əlaqələrini tapır və nəticəni müəyyən edə bilir.

Məmmədhəsənova Nəsibə Həsən qızı 16 sentyabr 2009-cu ildə ildə Sabirabad rayonunun Qalaqaqayın kəndində dünyaya göz açmışdır. 2015-ci ildə təhsil almaq üçün ilk dəfə məktəbə yollanan Məmmədhəsənova Nəsibə artıq 4a sinif şagirdidir. O, Əli Qurbanov adına Qalaqayın kənd orta məktəbində oxuyur. Gələcəkdə müəllimə olmaq istəyən Nəsibə dərslərinə indidən çox həvəslə yanaşır. Riyaziyyat fənninə isə marağı xüsusidir. Sinif rəhbərləri Sevda müəllimәsi Nəsibəni, elə Nəsibə də müəllimәsini çox istəyir. Məmmədhəsənova Nəsibə Həsən qızı 2017-2018-ci tədris ilində təhsildə qazandığı uğurlara görə Diplomla təltif olunmuşdur. Oxumağa, yazmağa çox meyillidir bu balaca qız. Hələ Nəsibənin incəsənətə də marağı var. O, gözəl rəsm çəkir. Elə bir az asudə vaxt tapan kimi rəsmlə məşğuldur. Bunu etmək Nəsibəyə böyük zövq verir. Valideynləri bu balaca mehriban, gülərüz qızı çox istəyirlər. Nəsibənin böyüyəndə həyata keçirmək istədikləri çoxdur. O, çalışır ki, orta təhsil aldığı müddətdə heç vaxt zəif qiymət almasın. Məqsədi ali məktəbə yüksək balla daxil olub ailəsini və sevdiklərini sevindirməkdir. Ailədə dörd nəfərdən ibarətdirlər. Atası Məmmədhəsənov Həsən avtomobil ustasıdır. Anası Məmmədhəsənova Nürənə evdar xanımdır. Nəsibənin Əli adında bir qardaşı var. O, qardaşını çox sevir.

Biz də Nəsibə balaya dərslərində və gələcək həyatında bol-bol uğurlar arzulayırıq!

# ŞİRİNOV XƏYAL



Idman millətin qəlbidir və o gərək sağlam ola. Idman dövlətin böyük bir qüvvəsidir və insanın, dövlətin həyatında böyük rol oynayır. Belə ki, idman həyat və sağlamlıqdır. Sağlam insan üçün hər bir şeyi etmək daha rahatdir. Bu planetdə hər şey onun əlləri ilə düzəldilmişdir, dünyanın yeddi möcüzəsindən tutmuş, kosmik gəmilərə qədər.

Lakin, bu hələ son hədd deyil. Buna görədə istənilən ölkədə idmana böyük diqqətlə yanaşırlar.

Son illər ərzində, demək olar ki, respublika idmançıları hər bir idman növü üzrə fərqlənmişlər. Avropa, dünya çempionatlarında və Olimpiya oyunlarında həmyerlilərimiz çoxlu sayda qızıl, gümüş və bürünc medallara sahib çıxmışlar.Müsahibiz Xəyal da hazırda idmanın cüdo növü ilə məşğuldur. O, gələcəkdə ölkəmizi dünyada daha da yaxşı tanıtmaq arzusundadır. Dəfələrlə yarışlarda medal alan Xəyal, gələcəkdə Neftçi klubunun üzvü olmaq istəyir.

Şirinov Xəyal Samir oğlu 2006-cı ilin yanvarın 23-də Şəmkir rayonunda anadan olub. 2012-ci ildə təhsilinə başlayan Xəyal 99 nömrəli məktəbin 7ə sinif şagirdidir.

Bəzən insan gələcək peşəsin elə kiçik yaşlarından başlayır. Elə Xəyal da bu məqsədlə idman sahəsini seçib.

Sevdiyi tarix fənnini tədris edən Yadigar müəllimin və cüdonun xırdalıqlarını öyrədən Cabir, Cəsarət və Əlisram müəllimlərinin adını xüsusi vurğulayaraq onlara daha çox bağlandığını deyir.

Dəfələrlə idman yarışlarında medallar qazanan Xəyal əmindir ki, bu istiqamətdə onu uğurlar, müvəffəqiyyətlər gözləyir. Atası Samir Xəyal haqqında çox fərəhlə danışdı. O qeyd etdi ki, oğlanlarımın hər ikisi də idmanla məşğuldular. Onlrın təhsilində əlimdən gələn nə varsa, əsirgəmiyəcəm.

Xəyal boş vaxtlarında idmanla məşğul olub, bu sahənin incəliklərini daha dərindən öyrənməyə çalışır. Valideynlərinin fəxri olan Xəyalı müəllimləri və dostları çox istəyir.

Atası Şirinov Samir Nizami oğlu tikinti şirkətlərinin birində usta işləyir. Anası Şirinova Kəmalə evdar xanımdır. 6 nəfərdən ibarət olan bu ailədə dörd uşaq böyüyür. Qardaşı Elxan 5-ci sinifdə oxuyur, Nizami və Milay isə 5 və 3 yaşlarındadır.

Jurnalımız adından Xəyala təhsildə və idmanda uğurlar diləyirik. Ümidvarıq ki, Xəyal gələcəyin ən yaxşı idmançısı olacaq.



# ŞİRİNOV ELXAN



Hər bir ölkə və xalqın dünya miqyasında tanınmasında idman və idmançıların böyük əhəmiyyəti var. İdmançılar əldə etdiyi qələbələrlə təmsil olunduğu dövləti başqa xalqlar arasında da tanıdır. Ümumiyyətlə, son 20-30 ildə xalqların tanıdılmasında idmanın çəkisi daha da artıb. Azərbaycan da bu mənada istisna deyil. Azərbaycan artıq çoxdandır idman ölkəsi olduğunu sübut edib. Ölkəmiz tanınmış idmançıları ilə fəxr edir. Çünki onlar dünya, Avropa miqyasında olimpiya oyunlarında qazandıqları möhtəşəm uğurlarla üç rəngli Azərbaycan bayrağını layiqincə ucalara qaldırıblar.

Dəfələrlə beynəlxalq və regional əhəmiyyətli yarışlarda uğur əldə etməklə idmançılarımız həm də Azərbaycanı tərənnüm edib, onu tanıdıb. Son illər idman sahəsində ölkəmizin əldə etdiyi uğurlar buna əyani sübutdur. Şirinov Elxan da gələcəyin güclü idmançısı olaraq ölkəmizi tanıtmaq niyyətindədir.

Şirinov Xəyal Samir oğlu 2008-cı ilin mart ayının 3 də Şəmkir rayonunda dünyaya göz açıb 2014-ci ildə 1-ci sinifə yollanan Elxan hazırda Binəqədi rayonu 99 saylı tam orta məktəbin 5e sinif şagirdidir.

Böyüyəndə idmançı olmaq istəyən Elxan elə indidən idmanla ciddi məşğul olur. O, idman üzrə yarışlarda dünya çempionatında iştirak edib. Məqsədi dünya çempionu olmaq ölkəmizin bayrağını dünya arenasında yüksəklərə qaldırmaqdır. Elə buna görə də idmanla ən yaxşı müəllimlərdən təlim alan Elxan daha güclü, əzimkar olmaq üçün boş zaman tapan kimi məşqlər edir. Məqaləmiz hazırlanan zaman valideyni ilə əlaqə saxlamışdıq. O, bildirdi ki, Elxan bu gün yarışa çıxıb. Və yenə də qalibiyyət əldə edib. Biz də öz adımızdan Elxanı jurnalımız vasitəsi ilə kollektivimiz adından təbrik edirik. Valideynləri də onunla qürur duyur, xüsusilə də atası.

Atası Şirinov Samir tikinti şirkətində işləyir, anası Şirinova Kəmalə evdar xanımdır.

6 nəfərdən ibarət olan bu ailədə 4 uşaq böyüyür. Evin böyüyü Xəyal 7-ci sinifdə oxuyur. Elxanın Nizami adında qardaşı, Milay adında bacısı var.

Sonda Elxana dərslərində və idmanda müvəffəqiyyətlər arzulayırıq. Inanırıq ki, gələcəkdə Azərbaycanın bayrağını dünya arenasında ən yüksəklərdə ucaldacaq.

# HÜSEYNOVA AYSEL



Dahi Azərbaycan şairi Seyid Əzim Şirvani belə deyib. “Bəli, təhsil bizim gələcəyimizdir, ölkəmizi dünyaya tanıtmaq üçün bilik, savaddır.” Müasir dünyada hər bir ölkənin gələcəyi həmin ölkədə təhsilin səviyyəsi ilə ölçülür. Təhsilin inkişafı hər bir ölkədə inkişaf konsepsiyasının tərkib hissəsidir. Ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək əzmindədir. Bundan başqa, zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca istiqamət seçib. Gənclərimizi də təhsil almağa həvəsləndirən məqam da elə budur.

Kamalına görədir şan-şöhrətin dünyada,
Onsuz adın, hünərin olar çətin dünyada.

Bəli, dahi Nizami Gəncəvi bu sözləri əbəs yerə söyləməyib. Dahi şair dəqiq bilirdi ki, təhsilsiz insan heç bir yerdə nəin ki, ölkəsini, heç özünü də bir şəxsiyyət kimi tanıda bilməz.

Müsahibimiz Hüseynova Aysel Məcid qızı da şairin dediyi kimi savadı, kamalı ilə həyatda özünəməxsus bir pillələrlə yüksəlmək arzusundadır.

Gəlin bu məqsədli qızı yaxından tanıyaq.

Aysel Məcid qızı Hüseynova 2004-cü il oktyabrın 30 da Bakı şəhərində dünyaya gəlib. 2011-ci ildə məktəbə ilk addımlarını atan bu qız yaxşı oxumağına və sinif yoldaşları ilə mehriban münasibətinə görə hər kəsin hörmətini qazanıb. Hazırda 99 nömrəli məktəbin 8a sinif şagirdi olan Aysel demək olar ki, məktəbin ən yaxşı oxuyanlarının sırasındadır. Dəfələrlə məktəb və məktəbdən kənar şeir müsbiqələrində, bilik yarışmalarında, manitorinqlərdə aldığı yüksək nəticələr əsasında diplom və tərifnamələrlə təltif olunmuşdur. Məktəbin tədbirlərində aparıcılıq edir.

Atası Hüseynov Məcid Əziz oğlu. Anası Əliyeva Xanımbacı Tofiq qızı isə təhsillidir, heç bir yerdə işləmir.

Ayselə elmin dərinliklərini öyrədən və ən çox hörmət etdiyi müəllimi sinif rəhbəri Şura müəllimə Azərbaycan və ədəbiyyat fənnini tədris edir, biologiya müəllimsi Məlahət xanım, tarix müəllimsi isə Sevinc xanımdır. Boş vaxt tapan kimi bədii ədəbiyyat oxuyur. Gələcəkdə həkim olmaq arzusu ilə elmin dərinliklərini daha yaxşı öyrənməyə çalışan Aysel dərslərində və gələcəkdə, qazanmaq istədiyi nəaliyyətlərdə müvəffəqiyyətlər arzulayırıq!



# TAMERLAN ALIŞOV



Cəmiyyətdəki qarışıqlıq cəhalətdən doğur. Cəhalət elmin işığında qərq olduqca hərc-mərcliyin yerini əmin-amanlıq, kin və nifrətin yerini isə sevgi tutur.

Gələcəyə işıq saçmayan, keçmişin qaranlıqlarını qılınc kimi yarmayan bilik insanın yaddaşında ağır bir yükdür. Həqiqi elm bədbinlikləri qovan, düyünləri açan sehirli çubuqdur...

Insan yalnız elmin köməyi ilə gələcək nəsillərlə ünsiyyət qura biləcək, fikirləri ilə də olsa onların arasında yaşayacaq.

Elm insanın məharətini artırmalı, həyatda qarşısına çıxan maneələri dəf etməyi öyrətməlidir. Elə yazının qəhrəmanı Tamerlan Alışov da təhsilə önəm verib, müxtəlif maneələri öz gücünə dəf etməyi qarşısına məqsəd qoyan şagirdlərimizdəndir.

Tamerlan Alışov Cəlaladdin oğlu 15 iyul 2008-ci ildə Bakı şəhərində anadan olmuşdur. 51 saylı məktəbin 4 c sinif şagirdi olan Tamerlan ilk dəfə 2015-ci ildə ibtidai təhsilə başlayıb. Sinif rəhbəri Aidə Ələkbərovanı çox sevdiyini dedi. Dərslərindən əla qiymət alan Tamerlan bala gələcəkdə hərbiçi olmaq istəyir. Onda bu maraq mənfur düşmənlərimizin Azərbaycanda törətdikləri amansız müharibə və işğal altında qalmış torpaqların azad olmasından irəli gəlir. Asudə zamanlarında maraqlı əl işləri üzərində çalışan Tamerlan kartondan, kağızdan, simdən müxtəlif oyuncaqlar düzəldir.

Boş vaxtlarında maraqlı kitablar oxuyur və idmanla məşğul olur.

Xatırladaq ki, Tamerlan nənəsi ilə yaşayır. O nənəsini çox istəyir.

Ailədə 4 nəfərdən ibarətdirlər. Atası Alışov Cəlaləddin fəhlə işləyir, anası Ramilə isə evdar xanımdır. Özündən böyük bacısı Lamiyə 5-ci sinifdə oxuyur.

Biz də Tamerlan balaya müvəffəqiyyətlər arzulayırıq. Uğurların bol olsun!

# RZAZADƏ AYSU



Bəzən insan özü-özünə belə bir sual verir. "Mən gələcəkdə kim olum, hansı peşəni seçim?" Bir çox hallarda özü öz taleyini cızır insan. Əksər hallarda özünü tanıdan, istedadını, biliyini üzə çıxarmağı bacaran insanlar elə məhz təhsilin ali dərəcədə olması üçün istədikləri mərhələyə gəlib çata bilirlər. Danılmaz haldır ki, bunun üçün özünə hədəf seçməlisən. Hədəf seçdiyin andan insanın həyat fəaliyyəti də dəyişir. Hədəf seçərkən vacib məqamlardan biri də realist olmaqdır. Elmli, təhsilli gələcəyinə imza atmağa çalışan balaca bir müsahibimizlə sizi də tanış edim.

Rzazadə Aysu Rail qızı 2 yanvar 2010-cu ildə Sabirabad rayonu Qalaqayin kəndində adadan olmuşdur. 2015-ci ildə Əli Qurbanov adına Qalaqayın kənd orta məktəbinə yollanan Aysu indi həmin məktəbin 3a sinfində təhsil alır. Müəllimlərinə sevgisindən irəli gələn həvəslə gələcəkdə elə özü də müəllim olmaq niyyətindədir. Ən çox sevdiyi Azərbaycan dili və riyaziyyat fənləridir. Boş vaxtlarında anasına yardım edən Aysu vaxtaşırı maraqlı kitablar oxuyur. Hələ o, arada tikiş də tikir. Dərslərinə olan böyük marağın nəticəsində Fəxri fərman qazanıb Aysu bala. Valideynləri bu balaca qızcığazla qürur duyurlar. Onlar bilirlər və əmindirlər ki, Aysudan gələcəkdə ən gözəl pedaqoq olacaq. Çalışacaq ki, müəllimlərinin ona öyrətdikləri ni o da öz yetirmələrinə daha keyfiyyətli tərzdə öyrətsin. Və o, çox yaxşı bilir ki, "müəllim" adı yüksək addır. Gələcəkdə müəllim olsa bu şərəfli işi layiqincə təmsil etməlidir. İnanırıq ki, Aysuda bu güc və maraq var.

Ailəsi 5 nəfərdən ibarətdir. Atası Rzayev Rail İmanqulu oglu F.İ.Q da işləyir. Anası Rzayeva Rəna Fazil qızı evdar xanımdır. Aysunun 1 qardaşı var.

Bu balaca qıza Təhsildə, elmdə gələcəkdə yüksək nəaliyyətlər arzulayırıq. Uğurları bol, ömrü uzun olsun!

# ÜLKƏR RÜSTƏMOVA



Hamı dünyaya sülhün bərqərar olmasını, xoşbəxt və qayğısız həyat haqda, maraqlı səyahət haqda, dəyərli həyatı təmin edə biləcək iş yeri haqda arzular edir. Bəzi arzular elə xəyal olaraq qalır, bəziləri isə həyata keçir. Biz böyüdükdən sonra kim olacağıq - indi heç kəs bilmir, hətta özümüz də.

Mən hüquqşünas olmaq istəyirəm, daha dəqiq desək, vəkil olmaq istəyirəm. Vəkil- çətinliyə və bəlaya düşmüş insanların köməyinə çatan adamdır deyir müsahibimiz. Haqqında danışacağım bu qız gələcəkdə hüquqşünas olmaq arzusundadır. 7-ci sinifdə oxuyan Ülkərlə gəlin daha yaxından tanış olaq.

Rüstəmova Ülkər Əzim qızı 21 iyun 2005-ci ildə Bakı şəhərində dünyaya gəlib. 2012-ci ildə məktəbə yollanan Ülkər hazırda Binəqədi rayonunda yerləşən 99 nömrəli tam orta məktəbin 7-ci e sinfində oxuyur. Anası Ülkər haqqında çox qürurla danışdı. Müsahibəmiz zamanı məlum oldu ki, o, atasını hələ 1 yaş yarım olanda itirib. Ağır qəzada rəhmətə gedən atasını heç xatırlamır bu qızcığaz. Hər dəfə kaş bir dəfə də olsaydı atamı görə bilsəydim deyir.

Ülkər çox çalışqan və bacarıqlı qızdır. Buna görə də müəllimləri və dostları arasında onu sevməyən yoxdur. Çalışır ki, tez böyüyüb anasına kömək olsun, dayaq olsun. Ülkər qardaşı Ülvi ilə eyni sinifdə oxuyur. Hər ikisi də dərslərində və məktəbdaxili tədbirlərdə fəallığına görə Fəxri fərmanlara layiq görülüblər. Ülkər 2016-cı ildə Türkiyədə "Uluslararası Brış Ekmeği" festifalında iştirakçı olub. Və ordan Tərifnamə ilə ölkəmizə qayıdıb. Ülkər deyir ki, ən çox sevdiyim Azərbaycan dili fənnidir. Bütün müəllimlərini sevən Ülkər Elnarə müəllimənin adını xüsusi vurğuladı. Boş vaxtlarında rəqs edir, maraqlı flimlərə baxır.

Atası Rüstəmov Əzim Xanlar oğlu 2008-ci ildə rəhmətə gedib.

Anası Rüstəmova Mehriban evdar xanımdır.

Bacısı Ülviyyə ailə həyatı qurub.

Ülkər hazırda anası və qardaşı Ülvi ilə birgə yaşayır

Biz də redaksiyamızın adından Ulkərə və Ülviyə dərslərində və təhsillərində uğurlar diləyirik!






2013-cü ildən nəşr olunan Təhsil Yenilikləri qəzeti və eyni adda xüsusi buraxılış jurnalı əsasən dövlət və dövlətçiliyi təbliğ edir. Öz saylarında daha çox təhsil, təhsildəki yeniliklər haqqında məlumat verir.

Xüsusi buraxılış olan jurnalda istənilən şəxslər öz yazıları ilə çıxış edə bilər. Belə ki, qabaqcıl ziyalılar, müəllimlər, həkimlər, tələbələr, şagirdlər və qeyri-ixtisasın sahibləri öz yazılarını jurnalda çap etdirə bilərlər. Eləcə də 500-dən yuxarı bal toplayan məzunlar, əlaçılar, idmançılar, maraqlı əl işləri olan gənclər, səs qabiliyyəti olan və şeir yazmaq və demək qabiliyyəti olan şagirdlər də jurnala müraciət edə bilərlər.

Onu da qeyd edək ki, jurnal şəhid övladlarına, fiziki əqli cəhətdən zəif olan şagirdlərə, o cümlədən hər iki valideynini itirən şagirdlərə pulsuzdur.

Əziz oxucular! Əgər sizlər də jurnalda məqalə, elan, təbrik və reklam vermək istəyirsinizsə aşağıdakı telefonlarla əlaqə saxlaya bilərsiniz:
Telefon nömrələri:
(070) 077 988 82 83 077 632 22 86 WhatsApp 012 408 91 92

Mail: tehsil_news@mail.ru
Facebook: Tehsil Yenilikleri İnstagram: tehsil_yenilikleri Youtube: Təhsil Yenilikləri

# ÇAĞDAŞ TƏHSİL

Xüsusi buraxılış Fevral 2019-cu il (12)








# EUROHOME

***Müasir dam örtükləri***

Hər növ polimer örtükləri, yeni dam örtüklərinin sifarişi

**RUUKKI**

**İtalya, Koreya, Çin, Türkiyyə, Ukrayna və bütün dövlətlərin mallarının satışı.**
**Burada hər növ dam örtükləri topdan və pərakəndə satışı olur.**






---

**Ünvan: Xırdalan şossesi, Ekologiya postu ilə üzbəüz**
**EVROHOME mağaza N103**
**Dükanıbn sahibi: Seymur Orucov**
**Tel: (+994 51) 600-02-07**

Təsisçi:
Vüsal Kəlbəcərli

Baş redaktor
Ülvi Musayev

Redaksiya heyyəti:
Cavid Qurbanov
Qənbər Qurbanov

"Çağdaş Təhsil"
qəzetinin
Xüsusi buraxılış

Ünvan: Azərbaycan
Respublikası
Bakı şəhəri, Mətbuat
prospekti
529-cu məhəllə
"Azərbaycan nəşriyyatı"
2-ci mərtəbə

Jurnal Redaksiyanın
kompüter mərkəzində
yığılıb, səhifələnib,
çap olunmuşdur.

Tiraj - 500

Tel: 012-408-91-92
077-632-22-86
050-877-71-86
070-352-22-07